## Azərbaycana qanunsuz formada dronların keçirilməsinin qarşısı alınıb



**Dövlət Sərhəd Xidməti (DSX) tərəfindən 2023-cü ilin aprel ayı ərzində Azərbaycana qanunsuz formada dronların keçirilməsinin qarşısı alınıb**

Bu barədə "Şərq"ə DSX-nin Mətbuat Mərkəzindən məlumat verilib.

Bildirilib ki, qaçaqmalçılıq fəaliyyətinə qarşı mübarizə çərçivəsində həyata keçirilən tədbirlər nəticəsində ümumi dəyəri 28 milyon 565 min 509 manat olan qaçaqmal, o cümlədən 9 mm-lik tapança patronları, video-çəkilişlərin aparılması üçün nəzərdə tutulan dronlar, qızıl-zinət əşyaları, narkotik vasitə və tütün məmulatları saxlanılıb.



## Kürdə suyun səviyyəsi artıb

**Kür Qıraqkəsəmən müşahidə məntəqəsinin bu günə olan məlumatına əsasən, çayda suyun səviyyəsi 391 sm-dir.**

Bu barədə Milli Hidrometeorologiya Xidmətindən xəbər verilib.

Qeyd edilib ki, dünənki müşahidə ilə müqayisədə 44 sm artım var.



## Ərdoğandan müjdə

"Hürjet" Türkiyə Silahlı Qüvvələri üçün "F-16"ları əvəz edəcək

**Türkiyə milli döyüş təyyarəsi "KAAN"ı istehsal etməklə dünyada 5-ci nəsil qırıcı istehsal edən 5 ölkədən biri olacaq.**

Bu barədə Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan "Gələcəyin Əsri" Təşviq Proqramının rəsmi açılışında bildirib. (apa)

O qeyd edib ki, "Hürjet" Türk Silahlı Qüvvələri üçün mövcud "F-16"ları da əvəz edəcək. Onun sözlərinə görə, "KAAN" yerli sursatla təchiz ediləcək.


№ 74 (5835) 2023-cü il

Qiyməti 40 qəpik

# ŞƏRQ

Günəş Şərqdən doğur!

www.sherg.az 2 may 2023-cü il (çərşənbə axşamı)


# Sülh sazişinin vaxtı çatıb

## Vaşinqtonda Blinkenin iştirakı ilə XİN başçılarının görüşü bir neçə gün davam edəcək



**Dünən Vaşinqtonda ABŞ dövlət katibi Entoni Blinkenlə Azərbaycan xarici işlər naziri Ceyhun Bayramov arasında ikitərəfli görüş olub. Görüş Corc Şultz adına Xarici İşlər üzrə Milli Tədris Mərkəzində baş tutub.**

Tərəflər Azərbaycan-Ermənistan münasibətlərinin normallaşmasına dair danışıqların gedişatını və sülh sazişinin layihəsini müzakirə edirbər. Laçın yolundakı vəziyyət də müzakirə olunub. Danışıqların bir neçə gün davam edəcəyi gözlənilir. İkitərəfli görüşdən sonra C.Bayramov, E.Blinken və Ermənistanın xarici işlər naziri Ararat Mirzoyan arasında üçtərəfli görüş keçirilib.

(səh.3)



## İlham Əliyev Şavkat Mirziyoyevi təbrik edib

**Azərbaycan Prezidenti İlham Əliyev Özbəkistanda referendumun uğurla keçirilməsi münasibətilə Prezident Şavkat Mirziyoyevi təbrik edib.**

Prezident İlham Əliyev bu barədə mayın 1-də Özbəkistanın "Uzavtosanoat" Səhmdar Cəmiyyətinin İdarə Heyətinin sədri Uluqbek Rozukulovu qəbul edərkən bildirib. Dövlət başçısı ilk növbədə, Özbəkistanda referendumun uğurla keçirilməsi münasibətilə Prezident Şavkat Mirziyoyevə təbriklərini çatdırmağı xahiş edib. Referendumu qardaş Özbəkistanın hərtərəfli inkişafı və demokratiyanın möhkəmlənməsi istiqamətində mühüm addım kimi dəyərləndirən Azərbaycan Prezidenti qeyd edib ki, bu referendum, eyni zamanda, Özbəkistan Prezidentinin həyata keçirdiyi kursa xalqın göstərdiyi etimaddır

## Aİ ilə Azərbaycan arasında enerji sahəsində sənədin icra vəziyyəti müzakirə olunacaq



**Energetika naziri Pərviz Şahbazov Avropa İttifaqının (Aİ) enerji məsələləri üzrə komissarı Kadri Simsonun dəvəti ilə Belçika Krallığına səfər edib.**

Nazirlikdən verilən məlumata görə, P.Şahbazov və onun rəhbərlik etdiyi nümayəndə heyəti mayın 2-də paytaxt Brüssel şəhərində keçiriləcək Azərbaycan - Avropa İttifaqı yüksək səviyyəli enerji dialoqunun növbəti görüşündə iştirak edəcək.

(səh.2)

# Gözlədiyimiz gün gəldi

## Ermənilər Laçın-Xankəndi yolunda Azərbaycan qanunları ilə hərəkət edir



**Azərbaycanın Laçın rayonu ərazisindən Laçın-Xankəndi yolunun başlanğıcında yaradılan nəzarət-buraxılış məntəqəsində avtomobillərin keçidi üçün normal rejim təmin edilib.** "Caliber.az" məlumat yayıb ki, vətəndaşların sərhədi keçməsi mütəşəkkil və nizam-intizamla, qarşılıqlı nəzakət şəraitində həyata keçirilməkdədir. Azərbaycan sərhədçiləri yüksək peşəkarlıq nümayiş etdirirlər. Bununla bağlı yayılan video-görüntülərdən sərhədçilərimizin qaydalara uyğun olaraq sərhədi keçən ermənilərin pasport yoxlanışını həyata keçirdiyini görmək mümkündür.

(səh.5)



## Zelenski elan etdi

Böyük döyüş başlayır!

**Tezliklə böyük döyüşlər olacaq, biz torpağımızı və xalqımızı rus əsarətindən azad etməliyik.**

Axar.az xəbər verir ki, bunu Ukrayna Prezidenti Vladimir Zelenski deyib. O, sərhəd qoşunlarının bölmələrinə Baxmut, Avdeyevka, Marinka və Donbasın digər şəhər və kəndlərini ən şiddətli döyüşlərdə müdafiə etdiyinə görə təşəkkür edib: "Tezliklə - əsas döyüş olacaq. Biz öz torpağımızı, xalqımızı rus əsarətindən azad etməliyik. Dövlət sərhədimizin bütün xəttini - həm quruda, həm də dənizdə bərpa etməliyik. Əminəm ki, sərhəd qoşunlarımızın qəhrəmanlığı, etibarlılığı, möhkəmliyi bu mühüm tarixi yolda Ukraynaya güclü kömək edəcək".

## Cocuq Mərcanlıda çoban minaya düşərək həlak olub




**Cəbrayılda çoban minaya düşüb.**

Hadisə rayonun Cocuq Mərcanlı kəndində baş verib.

1964-cü il təvəllüdlü çoban Oqtay Alışov at üstündə olarkən tank əleyhinə minaya düşüb. O, hadisə yerində ölüb. DİN Mətbuat Xidmətindən qafqazinfo-nun sorğusuna cavab olaraq bildirilib ki, hazırda aidiyyəti dövlət qurumları ilə birlikdə polis əməkdaşları hadisə yerində araşdırma aparır.

## Koronavirusdan 1 nəfər vəfat edib

6 yeni yoluxma faktı qeydə alınıb




**Azərbaycan Respublikasında koronavirus (COVID-19) infeksiyasına 6 yeni yoluxma faktı qeydə alınıb, 6 nəfər müalicə olunaraq sağalıb.**

Nazirlər Kabineti yanında Operativ Qərargahdan "Şərq"ə verilən məlumata görə, COVID-19 üçün götürülən analiz nümunələri müsbət çıxmış şəxslərdən 1 nəfəri vəfat edib.

Azərbaycanda indiyədək ümumilikdə 831 386 nəfərin koronavirus infeksiyasına yoluxması faktı müəyyən edilib. Onlardan 820 873 nəfər müalicə olunaraq sağalıb, 10 242 nəfər vəfat edib, aktiv xəstə sayı 271 nəfərdir. Ölkədə son sutka ərzində 679, hazırkı dövrədək isə 7 590 936 test aparılıb.



## Lentsov Bakıya İrəvandan öncə gəlməli idi

Moskva təbii olaraq çalışır ki, bölgədə ermənilərin mövqeyi güclənsin

(səh.2)



## Laçın-Xankəndi yolunda məntəqə quruldu, davamı da olacaq

Bu həm də Xankəndinin Azərbaycan ərazisi olduğu faktını bir daha təsdiqlədi

(səh.4)

# Lentsov Bakıya İrəvandan öncə gəlməli idi

## Moskva təbii olaraq çalışır ki, bölgədə ermənilərin mövqeyi güclənsin



### *Qarabağdakı ermənilər Azərbaycanın daxili məsələsidir və Ermənistanın bura aidiyyəti yoxdur*

**Rusiya sülhməramlı kontingentinin yeni rəhbəri, general-polkovnik Aleksandr Lentsovun 3 mayda Bakıya gələcəyi haqda məlumat yayılıb. Onun Bakıda Müdafiə Nazirliyinin rəhbərliyi ilə görüş keçirəcəyi bildirilib. Qeyd edək ki, Lentsov ötən həftədən fəaliyyətə başlayıb.**

O, erməni separatçıların liderləri, hətta anti-Rusiya mövqeyi ilə seçilən şəxslərlə görüşüb. Daha sonra isə İrəvana gedən Lentsov Ermənistan Müdafiə Nazirliyində tanışlıq görüşləri aparıb. Lentsovun Azərbaycan ərazisinə Ermənistandan gəlməsi və ilk Bakıda görüş keçirib, təqdimatını təsdiqlətməməsi ictimaiyyət arasında narazılığa səbəb olub. Vurğulanıb ki, Lentsovun həyat yoldaşı erməni millətçisidir, özünün isə 20 Yanvar qətliamı zamanı Bakıya yeridilən sovet qoşunlarının tərkibində olduğu bildirilir.

**Politoloq Əhəd Məmmədli "Şərq"ə bildirib ki, siyasətdə nüanslar mühüm elementlər sayılır. Analitik qeyd edib ki, sülhməramlı kontingentə rəhbər təyin olunmuş general Lentsov mütləq ilk səfərini Bakıya etməliydi:** "Çünki onun rəhbər təyin olunduğu hərbi kontingent məhz Azərbaycan ərazisində, Qarabağda yerləşdirilib. Həmin ərazilər sadəcə BMT tərəfindən deyil, elə Rusiyanın özü tərəfindən də Azərbaycan torpaqları kimi tanınıb. O baxımdan Lentsovun Bakıya İrəvandan öncə gəlməsi vacib idi. Ancaq bəllidir ki, Lentsov və digərləri ümumən Rusiyanın imperiya maraqlarına xidmət edirlər. Onlar təmsil etdiyi dövlətin tapşırıqlarını icra edirlər. Lentsovun yoldaşı erməni millətçisi olmasa belə, yenə heç nə dəyişməyəcək. Rustam Muradov gələndə bəziləri sevinirdilər ki, "ay türk gəlir, müsəlman gəlir", sonra nə oldu, necə davrandı, hamımız gördük. Generallar Kremldən gələn qərarları icra etməklə məşğuldur. Amma təbii ki, belə vəzifələr tutan şəxslərin fərdi mövqeyi, yanaşması da önəm kəsb edir. Onun Qarabağda baş verənlərə necə reaksiya verəcəyi, prosesləri necə idarə edəcəyi önəmlidir. Lakin Lentsovun arvadının erməni əsilli olması, özünün qanlı 20 Yanvar hadisələrində iştirakı faktları göstərir ki, o da ermənilərin lehinə addımlar atacaq".

**Ə.Məmmədli vurğulayıb ki, Moskva təbii olaraq çalışır ki, bölgədə ermənilərin mövqeyi güclənsin:** "Çünki Qarabağda ermənilərin mövqeyinin güclənməsi Rusiyanın regionda daha da güclənməsi deməkdir. Azərbaycan tərəfi buna hazırlıqlı olmalı və elə indidən rəsmi etirazını, narazılığını bildirməlidir. Lentsovun Bakıda Azərbaycan müdafiə naziri ilə görüşündə iradlarımızı rus generalın diqqətinə çatdırmalıyıq. Qarabağa göndərilən Lentsov niyə İrəvana səfər etməlidir?! Qarabağdakı ermənilər Azərbaycanın daxili məsələsidir və Ermənistanın bura aidiyyəti yoxdur. Ona görə də sülhməramlı kontingentin rəhbərlərinin Qarabağda baş verənlərə görə İrəvana gedişlərinə son verilməlidir. Rusiya sülhməramlı kontingentin rəhbərləri Qarabağ məsələsindən dolayı heç bir ölkənin paytaxtına səfər etməməlidir".

**İsmayıl Qocayev**

# Türkiyədə seçkilərə iki həftəlik zaman qalıb

## Ərdoğan Kamal Kılıçdaroğludan daha şanslıdır



### *Ancaq müxalifət parlament seçkilərində böyük üstünlük əldə edə bilər*

**Türkiyədə dünyanın güc mərkəzlərinin diqqətində olan 14 may prezident və parlament seçkilərinə iki həftəlik zaman qalıb. Qardaş ölkədə keçiriləcək seçki Azərbaycanda da maraqla izlənilir. Ölkəmizdə əksəriyyət hazırkı Prezident Rəcəb Tayyib Ərdoğanın seçkidə qalib gələcəyini, müxalifətin şansının az olduğunu düşünür. Bu, adi vətəndaşların sosial şəbəkələrdəki yazışmalarında da görünür.**

Xarici ölkələrdə səsvermə prosesi aprelin 27-dən başlayıb. Azərbaycanda yaşayan Türkiyə vətəndaşları isə mayın 5, 6 və 7-də Bakı, Gəncə və Naxçıvan konsulluqlarında səs verə bilərlər. Məlumat üçün deyək ki, prezidentliyə iddiaçılardan biri indiki dövlət başçısı, Ədalət və İnkişaf Partiyasının (AKP) lideri, "Cümhur İttifaqı" blokunun vahid namizədi Rəcəb Tayyib Ərdoğandır. 69 yaşı olan Ərdoğan partiyasını 2001-ci ildə yaradıb, 2003-cü ildən baş nazir postunu tutub, 2014-cü ildə prezident seçilib. 2017-ci ildə Türkiyədə prezident idarə üsuluna keçidi nəzərdə tutan konstitusiya referendumu olub. Bir il sonra Ərdoğan yenidən prezident mandatı alaraq həm də hökumət başçısı səlahiyyətlərinə yiyələnib. "Cümhur İttifaqı"nın əsas rəqibi müxalif cinahı təmsil edən "Millət İttifaqı"nın vahid namizədi, CHP sədri Kamal Kılıçdaroğludur. 74 yaşlı Kılıçdaroğlu prezidentliyə iddialıdır və ilk turda seçilmə şansının Ərdoğandan çox olduğu qənaətindədir. Ərdoğanın digər rəqibləri - Məmləkət Partiyasının sədri, 58 yaşlı Məhərrəm İncə və ATA İttifaqının namizədi, müstəqil siyasətçi Sinan Oğandır. Onun 55 yaşı var. İlk turda prezident seçilmək üçün etibarlı səslərin 50 faizindən çoxunu almaq tələb olunur. Əks halda ən çox səs yığmış iki namizəd ikinci tura (28 may) vəsiqə alacaq. Parlament seçkisinə isə 26 partiyadan namizəd çıxarılıb. Onların 13-ü seçkiyə ayrılıqda gedir, 13 partiya ittifaqlarda bir araya gəlib. 600 nəfərlik parlamentə - Türkiyə Böyük Millət Məclisinə düşmək üçün ölkə üzrə etibarlı səslərin azı 7 faizini qazanmaq tələb olunur. "Millət İttifaqı" Türkiyəni əvvəki sistemə, parlamentli idarə üsuluna qaytarmaq istəyir.

**Milli Cəbhə Partiyasının sədr müavini Tural İrfan "Şərq"ə açıqlamasında bildirib ki, Türkiyədə keçiriləcək prezident seçkilərinin nəticəsi Azərbaycan üçün xüsusi önəm kəsb edir. Partiya təmsilçisi hesab edir ki, Türkiyənin indiki hakimiyyətinin Azərbaycanla olan sıx əlaqələrinin və müttəfiqliyin davamiyyəti olduqca mühümdür:** "Doğrudur, Türkiyə-Azərbaycan münasibətləri dövlət maraqlarına əsaslanır və köklü əlaqələrdir. Ancaq istənilən halda, məhz indiki dönəmdə Ərdoğanın hakimiyyətdə qalması Azərbaycan üçün müstəsna əhəmiyyət kəsb edir. İstər Türkiyənin bir güclü dövlət kimi formalaşmasında və inkişafında, istərsə də Azərbaycanla əlaqələrin pik həddə çatmasında Ərdoğan hakimiyyətinin rolu əvəzsizdir. Görünən də odur ki, Türkiyədə seçicilərin əksər çoxluğu Rəcəb Tayyib Ərdoğanı dəstəkləyir və onun hakimiyyətdə qalmasını istəyirlər. Digər namizədlərin daha çox maraqlı xarici güclər tərəfindən dəstəklənməsi açıq-aşkar nəzərə çarpır. Sirr deyil ki, Türkiyənin son dövrdə sistemli şəkildə və hərtərəfli inkişafı, hərbi sənayedəki uğurları Qərbi çox narahat edir. Məhz o səbəbdən Qərb Ərdoğanın qarşısında olan digər namizədlərdən birini hakimiyyətə gətirməklə öz maraqlarını həyata keçirmək istəyir. Kılıçdaroğlu hakimiyyətə gəldiyi təqdirdə Azərbaycan-Türkiyə əlaqələrinin hansı səviyyədə davam edəcəyi də sual altındadır. Ona görə Azərbaycan üçün sərfəli, Türkiyə üçün də faydalı olan cənab Rəcəb Tayyib Ərdoğanın prezident seçilməsidir. Kılıçdaroğlunun prezident seçiləcəyi inandırıcı görünmür. Ümumiyyətlə, müxalifətin prezident seçkisində qalib gələcəyini güman etmirəm. Ancaq müxalifət parlament seçkilərində böyük üstünlük əldə edə bilər".

**İsmayıl Qocayev**

# Aİ ilə Azərbaycan arasında enerji sahəsində sənədin icra vəziyyəti müzakirə olunacaq

**Energetika naziri Pərviz Şahbazov Avropa İttifaqının (Aİ) enerji məsələləri üzrə komissarı Kadri Simsonun dəvəti ilə Belçika Krallığına səfər edib.**



Nazirlikdən verilən məlumata görə, P.Şahbazov və onun rəhbərlik etdiyi nümayəndə heyəti mayın 2-də paytaxt Brüssel şəhərində keçiriləcək Azərbaycan - Avropa İttifaqı yüksək səviyyəli enerji dialoqunun növbəti görüşündə iştirak edəcək.

Görüş çərçivəsində Cənub Qaz Dəhlizinin genişləndirilməsi, bərpa olunan enerji, enerji səmərəliliyi sahələri üzrə əməkdaşlıq məsələləri, eləcə də Avropa İttifaqı ilə Azərbaycan arasında enerji sahəsində Strateji Tərəfdaşlığa dair Anlaşma Memorandumunun icra vəziyyətinə dair müzakirələrin aparılması nəzərdə tutulur.





# Türkiyə Qarabağ savaşında ürəyini qoydu

## Fazil Mustafa: "İlham Əliyevin Ankaraya dəstəyi həm də bir vəfa borcu kimi anlaşılmalıdır"

**Prezident İlham Əliyev bir neçə gün bundan öncə Türkiyəyə səfər edib. O "TEKNOFEST" aerokosmik və texnologiya festivalında çıxışında deyib ki, atalarımızın, əcdadlarımızın ruhu şaddır, çünki Türkiyə və Azərbaycan bir yerdədir.**

Bir neçə gündən sonra Azərbaycan xalqının çağdaş Azərbaycan dövlətinin banisi, qurucusu Heydər Əliyevin 100 illiyini qeyd edəcəyini xatırladan dövlət başçısı bildirib: "Heydər Əliyev demişdir ki, Türkiyə və Azərbaycan bir millət, iki dövlətdir. Bu gün biz bunu isbatlayırıq. Bütün atalarımızın, əcdadlarımızın ruhu şaddır. Çünki Türkiyə və Azərbaycan bir yerdədir. Atam demişkən, "Bir millət, iki dövlət", əlavə etmək istəyirəm, bir yumruq!".

**Səfəri "Şərq"ə dəyərləndirən millət vəkili Fazil Mustafa vurğulayıb ki, ölkə başçısının bu məqamda Türkiyəyə getməsi, həm də bir vəfa borcu kimi anlaşılmalıdır:** "Bu cür kəskin mübahisələrin və seçki qarşıdurmalarının baş verdiyi məqamda, Qarabağ savaşında bizə olunan dəstək barəsində Türkiyə ictimaiyyətinə məlumatın çatdırılması əxlaqi məsələdir. Bu, ölkə başçısının Azərbaycan üçün azacıq da olsa ürəyini qoyanlara nə qədər həssas yanaşdığını göstərir. Halbuki Türkiyə bütövlükdə Qarabağ savaşında ürəyini qoydu və burada Rəcəb Tayyib Ərdoğanın rolu əvəzedilməzdir. Prezident İlham Əliyev də bu məqamda belə davranış sərgiləməklə Azərbaycanın heç nəyi unutmadığını göstərdi. Bu mənada "TEKNOFEST"də iştirak, bir vasitədir".

**Parlamentarinin sözlərinə görə, Türkiyənin texnoloji inkişafının bariz nümunəsi olan belə tədbirdə yer almaq və Türkiyə Prezidenti ilə iki dövlət arasındakı dosluğun əhəmiyyətini diqqətə çatdırmaq olduqca böyük jestdir:** "Bü cür jestləri də hər zaman Türkiyə ilk yardıma qaçan, dağıdılmış şəhərlərin bərpasında önəmli rol oynayan Azərbaycan dövlətinin başçısı edə bilər. Yəni bu, Azərbaycan əxlaqının təqdimatıdır. Həmçinin burada "bir millət, iki dövlət və bir yumruğun" xatırladılması, vaxtilə "Qardaş yumruğu" adlı təlimlərin keçirilməsinə işarə verilməsi onu göstərdi ki, bir yumruğu hədəfə vurmaq, torpaqlarımıza göz dikənlərin qarşısını almaq üçün vacibdir. Ona görə də səfərin ciddi əhəmiyyəti var. Bu səfər zamanı Prezident İlham Əliyev Türkiyə və Azərbaycan münasibətlərinin gələcək trayektoriyasını cızdı".

**Nihat Müzəffər**

# Fransa regionda əzablara düçar olub

## Ona görə ki, istədiyini ala bilmir, əksinə, intensiv sıxışdırılma siyasəti ilə üzləşir



**"Fransanın Avropa və xarici işlər naziri Ketrin Kolonnanın Azərbaycana səfəri Parisin regiondakı iddialı ambisiyalarına son qoymadığını bir daha göstərir. Lakin görünür ki, Fransa da, Azərbaycan da ikitərəfli münasibətləri ayrıca komponent kimi daha da irəliyə aparmağın tərəfdarıdırlar". Bu barədə siyasi şərhçi Aqşin Kərimov deyib. Ekspert bildirib ki, ümumiyyətlə, tərəflər regional təhlükəsizlik üzrə yaranan fikir ayrılıqlarının elementlərini ikitərəfli sistemə sirayət etdirmək istəmirlər:** "Azərbaycan xarici işlər naziri Ceyhun Bayramovla Ketrin Kolonnanın qapalı danışıqlarından sonra mətbuat önündəki ritorikaları da eyni vurğuya dəlalət edirdi. Yeni nazirlərin media önündəki çıxışında Bakı-Paris münasibətlərinin dərinləşdirilməsi üçün niyyət ifadə olundu, çünki ikitərəfli əlaqələrin böyük inkişaf potensialı var. Bununla belə, regional arxitekturanın bazası üzrə Fransanın narazılıqla səciyyələnən mövqeyi Parisin bundan sonra da baş verə biləcək dinamikaya təsiretmə iddialarını ortaya qoyur. Xanım Kolonna, əslində, Fransanın regionda üzləşdiyi geosiyasi əziyyətlərin məzmununu açdı. "Biz Laçın yolunda Azərbaycanın sərhəd-buraxılış məntəqəsi qurmasına etiraz edirik" deməklə ənənəvi məntiqini yenidən gündəmə gətirdi. Düzdür, Azərbaycan xarici işlər naziri Ceyhun Bayramov fransalı həmkarının cavabını verdi. Beləcə, iki baş diplomat arasındakı söz davası regional məsələlərdəki istiqamətlər üzrə ciddi mövqe fərqinin qaldığının sübutudur. Fransa regionda ona görə əzablara düçar olub ki, o, istədiyini ala bilmir, əksinə, intensiv sıxışdırılma siyasəti ilə üzləşir. Bu sıxışdırılmanın həmmüəllifləri Böyük Britaniya, ABŞ və Türkiyədir, indi Fransa Afrikadan tutmuş Cənubi Qafqaz regionuna qədər nüfuz itkisi ilə üz-üzədir. Belə olan təqdirdə Fransa xarici siyasət məqsədlərində strateji yüksəlişlərə nail olmaq üçün Rusiya, Çin, İranla açıq-gizli sövdələşmələrə getməkdən belə çəkinmir. Bu, Fransanın geosiyasi itkilərini ört-basdır etmək cəhdidir. Ancaq Paris regiondakı proseslərə həlledici təsir qazanmaq üçün hətta proseslərin altını üstünə çevirməyi də ali məqsəd sayır".

*A.Kərimov diqqətə çatdırıb ki, Fransa geosiyasi mövqeyinin gücünə inamı artırmaq üçün müxtəlif epitetlərdən yapışır:* "Xanım Kolonnanın Bakıda səsləndirdiyi bəyanatların məğzində həmin elementləri tapmaq olar. Fransanın baş diplomatı sülh və təhlükəsizliyi cəlbedici epitetlər altında pərdələməyə çalışsa da, bir nöqtədə Parisin hikkəli davranışını yenidən gün üzünə çıxardı. Yəni Azərbaycan suveren hüquqlarından istifadə etməsin və Ermənistanın xeyrinə addımlara rəvac versin. Fransa XİN başçısının mövqeyində təəccüblü heç nə yoxdur. Bu, ənənəvi ritorikanın davamıdır. Məsələyə daha geniş rəqabət meydanı bucağından baxmaq zərurəti meydana çıxır. Fransa Prezidenti Emmanuel Makronun Çin səfərindən sonra rəsmi Pekinin qlobal siyasətinin axarında Cənubi Qafqaz xəritəsi canlanır. Fransa Rusiya, İran və Çin xəttinə qoşularaq regional siyasətini "ölü nöqtə"dən dirçəltmək niyyətindədir, hərçənd, bunun uğurla nəticələnəcəyi şübhə altındadır. Görünən odur ki, Fransa Cənubi Qafqaz üzrə siyasətlərini yeniləyən güclərin yedəyinə qoşulsa da, regiondakı aktivliyini yuxarılara qaldıra bilməyəcək. Buna görə də Paris "B" planına keçərək regional konfiqurasiyanı zədələmək üçün kəşfiyyat imkanlarından istifadə etməyə çalışa bilər. Regional məsələlərə dair yanaşmalarda Azərbaycanla Fransanın riskli münasibətlərini tənzimləmək üçün danışıqların davam edəcəyi gözlənilir. Bakı-Paris arasındakı siyasi gərginlik ikitərəfli əlaqələrin iqtisadi spektrinə ciddi təsir göstərməyəcək. Bəzi gedişatlar Kolonnanın Gürcüstan və Ermənistana səfərindən sonrakı nəticələrdən asılı olacaq".

**İsmayıl**

# Sülh sazişinin vaxtı çatıb

## Vaşinqtonda Blinkenin iştirakı ilə XİN başçılarının görüşü bir neçə gün davam edəcək





**Dünən Vaşinqtonda ABŞ dövlət katibi Entoni Blinkenlə Azərbaycan xarici işlər naziri Ceyhun Bayramov arasında ikitərəfli görüş olub.**

Görüş Corc Şultz adına Xarici İşlər üzrə Milli Tədris Mərkəzində baş tutub.

Tərəflər Azərbaycan-Ermənistan münasibətlərinin normallaşmasına dair danışıqların gedişatını və sülh sazişinin layihəsini müzakirə edirbər. Laçın yolundakı vəziyyət də müzakirə olunub.

Danışıqların bir neçə gün davam edəcəyi gözlənilir.

İkitərəfli görüşdən sonra C.Bayramov, E.Blinken və Ermənistanın xarici işlər naziri Ararat Mirzoyan arasında üçtərəfli görüş keçirilib.

Daha sonra Vaşinqtonda ABŞ dövlət katibi Entoni Blinkenin vasitəçiliyi ilə Azərbaycan xarici işlər naziri Ceyhun Bayramovla ermənistanlı həmkarı Ararat Mirzoyan arasında da görüş olub.

Xarici İşlər Nazirliyinin mətbuat katibi Ayxan Hacızadə görüşlə bağlı tviterdə bunları bildirib:

"Azərbaycanla Ermənistan arasında ərazi bütövlüyü və suverenliyə əsaslanan sülhün vaxtı çatıb".

**Politoloq İlyas Hüseynov ABŞ dövlət katibi Entoni Blinkenin Vaşinqtonda Azərbaycan və Ermənictan xarici işlər nazirlərinin baş tutan görüşünü çərh edib:**

"Sülh sazişi ilə bağlı müzakirələrin keçirilməsi üçün rəsmi Moskva və rəsmi Vaşinqton arasında sanki üstünlük qazanma yarışı var idi. Öz növbəsində erməni mediası keçən həftə hakimiyyətdəki mənbələrinə istinadla yazıb ki, ABŞ Ermənistana may ayının sonuna qədər sülh müqaviləsinin ilkin variantının təsdiq edilməsi üçün təzyiq göstərir. İddialara görə, sülh sazişinin layihəsini bu yaxınlarda ABŞ Dövlət katibinin müavini Erika Olson Baş nazir Paşinyana təqdim edib. Məlumatda bildirilir ki, sülh sazişi layihəsinin təfərrüatı haqda bilgi yoxdur. Ancaq Ermənistanın maraqlarına "cavab verməditi" təxmin olunur".

**İlyas Hüseynov bildirib ki, Azərbaycan-Ermənistan sülh danışıqlarında deyəsən, beynəlxalq oyunçular hərəkətə keçmək qərarı verib. Bəzi məlumatlara görə, danışıqlar bir neçə gün davam edə bilər:**

"Bu artıq prosesin ciddi xarakterindən xəbər verir. Əsas məsələ ondan ibarətdir ki, sülh müqaviləsinin yol xəritəsində hər nöqtəyə, hər vergülə, hətta hər nidaya ciddi diqqət yetirilsin. Ötən dövr ərzində qarşı tərəfin necə söz oyununa getdiyini, bəyanatları öz bildikləri kimi necə interpretasiya etdiyinin şahidi olmuşuq. Rəsmi Vaşinqton çalışır ki, Rusiyanın vasitəçiliyi ilə keçirilən görüşə qədər bütün məsələlərin razılaşdırılmasına nail olsun. Nəticədə rəsmi Moskvanın təşəbbüsü ilə keçirilən görüş əhəmiyyət daşımasın. Ötən il Praqadan sonra Soçidə imzalanan sənədlərin mahiyyəti dediklərimizi təsdiq edir. Artıq Moskvada Azərbaycan, Rusiya və Ermənistan XİN rəhbərlərinin üçtərəfli görüşünün anonsu verilib. Şimal qonşumuz prosesləri diqqətlə izləyir. Danışıqlar bir neçə gün davam edərsə, istisna olunmur ki, zəmin üzərində təxribatlar da baş verə bilər. Buna da hazırlıqlı olmaq lazımdır. Həmçinin ötən həftəsonu İrəvanda olan Fransa XİN başçısı Ketrin Kolonna bildirib ki, Azərbaycan və Ermənistan rəhbərləri iyunun 1-də Kişinyovda Avropa Siyasi Birliyinin növbəti sammiti çərçivəsində bir araya gələ bilərlər. Görünən budur ki, Kişinyov görüşünə qədər Vaşinqton maksimum dərəcədə tərəflərin mövqelərini yaxınlaşdırmağa çalışacaq. ABŞ-nin diplomatik fəallığı fonunda sülh müqaviləsinin imzalanacağı iddiası güclənir. İzləyək, vasitəçilərdən asılı olmayaraq sülh gündəliyimiz dəyişməz olaraq qalır".

**Sücayət Mehti**



**"Xankəndidə separatçı rejim erməni əhalisindən borclarını təcili ödəməyi tələb edir, borcunu ödəməyənlər "məhkəmə" yolu ilə buna məcbur ediləcək".**

**Bunu siyas şərhçi Asif Nərimanlı deyib. Analitik bildirib ki, erməni əhalisinin separatçı rejimə ümumi borcu 150 milyard dramdır:**

"Bu borclar adətən biznesin qurulması üçün kredit kimi götürülüb, müharibədən sonra nə biznes qura biliblər, nə də pulu qaytara bilirlər. Borcun qaytarılması tələbi ermənilərdə narazılıq yaradıb. Bu vəziyyət Qarabağdakı proseslərlə konkret nəticələr çıxarmağa imkan verir. Separatçı rejim heç olmadığı qədər çıxılmaz vəziyyətdədir. Erməni əhalisini "borc təhdidi" ilə özlərinə tabe etdirmək və Azərbaycana reinteqrasiya meyillərini sıradan çıxarmaq istəyirlər. Borc məsələsi Azərbaycan üçün unikal şəraitdir və rəsmi Bakıya bir neçə istiqamətdə addım atmaqi imkanı verir. Erməni əhalisinə Azərbaycana reinteqrasiya prosesi çərçivəsində bütün borclarının sıfırlanacağı haqda müraciət oluna bilər. Separatçıların erməni əhalisini girov saxladığı və təhdid etdiyi məsələsi beynəlxalq müstəvidə qaldırıla bilər. Xüsusilə təmasların qurulması ideyasını dəstəkləyən ABŞ və Avropa İttifaqı qarşısında.. Qarabağı tərk etmək istəyənlər üçün yolun açıq olduğu elan edilə bilər. Laçın postunda ermənilərin rahat şəkildə keçdiyini əks etdirən görüntülər bu kontekstdə əhəmiyyətlidir, belə görüntülərin geniş yayılması daha effektli olacaq".

# Bakı üçün unikal şəraitdir

## Erməni əhalisinə Azərbaycana reinteqrasiya prosesi çərçivəsində bütün borclarının sıfırlanacağı haqda müraciət oluna bilər

**İsmayıl**

# İyuna doğru qiymətlər ucuzlaşacaq

## Evinin altındakı marketdən məhsul alan vətəndaşların, əlbəttə ki, seçimi olmayacaq



**Hazırda bir sıra kənd təsərrüfatı məhsulları üzrə istehsal və tədarük mövsümü olsa da, qiymətlər yenə aşağı düşmür. Görünür, keçən ilin əvvəlindən start götürən bahalaşma hələ də davam edir. Pomidorun bir kiloqramının qiyməti 2-3 manat arasında, xiyarın qiyməti isə 1-2 manat arasında dəyişməkdədir.**

*Bahalaşmanı şərh edən iqtisadçı-ekspert Fuad İbrahimlinin "Şərq"ə açıqlamasına görə, mövsümi meyvə və tərəvəzlərlə bağlı qiymətlər həmişə ilkin zamanlarda yüksək olur:* "Ola bilər ki, 10-20 gündən sonra olmasa da, iyuna doğru qiymətlərdə ucuzlaşmanı hiss edək. Hələ mövsümi pomidor bazara çıxmayıb. Ölkədə həmişə yanvar, fevral, mart, aprel, hətta may aylarında mağazalarda satılan pomidorların bir qismi istixanalardan yığılır. Amma yeni məhsulların bitməsinə az qalıb və qiymətlər aşağı enə bilər. Lakin bu il qiymətlər ötən ilə nisbətən daha baha olacaq. Mövsümündə yaranan bolluq zamanı qiymətlər nə qədər ucuzlaşa da, bugünkü bazar qiymətləri insanların gəliri ilə tərsmütənasibdir.

**F.İbrahimlinin sözlərinə görə, qiymətləri baha olan məhsullar adətən seçmə məhsullardır:** "Dəymədüşər" alıcılar var ki, aldığı hər məhsulu seçir. Bu zaman da birinci və ikinci sort məhsul anlayışı meydana çıxır. Satıcılar da seçilmiş məhsulu baha satır ki, ikinci sortu da aşağı qiymətə satsın ki, məhsul zay olmasın. Əgər vətəndaşlar bir az əziyyət çəkib axtarış etsə, büdcəsinə uyğun məhsul tapa bilər. Evinin altındakı marketdən məhsul alan vətəndaşların, əlbəttə ki, seçimi olmayacaq və meyvə-tərəvəzləri market neçəyə satsa alacaq. Ancaq keçmişdəki "bazarlıq" ənənəsini qoruyub saxlayan insanlar səhər 8-də durub gedib bazarlıq edir və ucuz qiymətə yaxşı məhsullar ala bilirlər".

**Şəymən**



# 600 manat birdəfəlik müavinət ala biləcəklər

## İşğaldan azad olunan ərazilərimizdə işləyənlərə güzəştlərin tətbiqi nəzərdə tutulur

**""Əmək Məcəlləsində" edilən dəyişikliklərə əsasən, işğaldan azad olunan ərazilərimizdə - Qarabağ və Şərqi Zəngəzurda məskunlaşaraq işləyənlər və işəgötürənlər üçün stimullaşdırıcı mexanizmlərin və eləcə də güzəştlərin tətbiqi nəzərdə tutulur".** Bunu millət vəkili Vüqar Bayramov deyib. Deputat bildirib ki, peşə, orta ixtisas və ali təhsil müəssisəsini bitirmiş və son 5 il ərzində azı 2 il əmək stajı olan vətəndaşlarımızın aylıq vəzifə maaşına əlavələr hesablanmaqla yanaşı 600 manat birdəfəlik müavinət ala biləcəklər: "Onlar həmçinin hər il 5 gün əlavə məzuniyyət götürmək hüququna malik olacaqlar. İşğaldan azad edilmiş ərazilərimizdə fəaliyyət göstərən işçilər üçün ödənilən sosial sığorta haqları 2026-cı ilədək tam olaraq dövlət tərəfindən subsidiyalaşdırılacaq. Yəni dövlət bu ödənişləri öz üzərinə götürəcək: "2026-cı ildən başlayaraq 3 il ərzində subsidiya faizi 80, sonrakı 3 ildə 60 və uyğun olaraq daha sonra 40 faiz olacaq. Fərdi sahibkarlar, ailə-kəndli təsərrüfatları, torpaq pay mülkiyyətçiləri tərəfindən ödənilən sosial sığorta haqları isə 10 il müddətində tam olaraq dövlət büdcəsinin vəsaiti hesabına subsidiyalaşdırılacaq. Yeni dəyişikliklərə əsasən, ödənilən sosial sığorta haqları dövlət büdcəsindən onlara geri qaytarılacaq. İşçilərin isə fərdi hesablarında pensiya kapitalı toplanması, beləliklə, sosial sığorta stajları davam edəcək. Deməli, işğaldan azad olunan ərazidə çalışan vətəndaşlarımız maaşlarına əlavənin hesablanması, birdəfəlik 600 manat müavinəti almaq hüquqlarına malikdirlər. Sosial sığorta haqlarının subsidiya edilməsi də onların maaşlarının daha da artmasına imkan verəcək".

**İsmayıl**

# ABŞ-nin sülh prosesi ilə bağlı atdığı addımlar bizim xeyrimizədir

## Vaşinqtonun maraqları Cənubi Qafqazda sülh və sabitliyin olmasını diktə edir



**"ABŞ Bakı ilə tezliklə sülh müqaviləsi imzalamaq üçün İrəvana təzyiq göstərir".**

Bunu "Hraparak" qəzeti yazıb. Bildirilib ki, Vaşinqton Azərbaycan və Ermənistanın may ayının sonuna qədər sülh müqaviləsinin ilkin variantı təsdiqləmələrini istəyir.

Nəşrin məlumatına görə, ABŞ dövlət katibinin köməkçisinin müavini Erika Olsonun hər iki ölkəyə sonuncu səfəri də bununla bağlıdır.

Lakin Ermənistan sülh gündəliyindən uzaq olduğuna görə ABŞ-nin İrəvana təzyiqləri artıracağı gözlənilir.

Qeyd edək ki, E.Olson aprelin 18-də Ermənistana, bir gün sonra, aprelin 19-da isə Azərbaycana səfər edib. O, bir sıra rəsmi şəxslərlə, o cümlədən ölkə liderləri ilə görüşüb. Müzakirələrin əsas mövzusu rəsmi İrəvanla rəsmi Bakı arasında münasibətlərin normallaşması prosesi olub.

**Məsələyə münasibət bildirən siyasi şərhçi Kənan Novruzov "Şərq"ə vurğulayıb ki, aprelin 27-də Ceyhun Bayramov mətbuat konfransında "ABŞ-nin səyləri nəticəsində Ermənistan diplomatik danışıqlar masasına qayıdıb" cümləsini işlədib:**

"İndi də Ermənistan KİV-i belə açıqlamalar verir.

Hər iki məqamı nəzərə alsaq, ABŞ-nin sülh prosesi ilə bağlı atdığı addımların bizim xeyrimizə olduğunu görərik. Yəni rəsmi Vaşinqton əsasən bizim maraqlarımızı nəzərə alır, nəinki rəsmi İrəvanın.

Lakin Amerikanı düşündürən əsas məqam rəsmi Bakının qayğıları da deyil. Onlar öz regional maraqları çərçivəsində hərəkət edirlər. Məhz həmin regional maraqlar Cənubi Qafqazda sülh və sabitliyin olmasını diktə edir. Çünki ABŞ-ın Cənubi Qafqazla bağlı daha çox iqtisadi maraqları var.

Bu isə təhlükəsizliyin təmin edilməsini və nəqliyyat-kommunikasiya xətlərinin açılmasını tələb edir. Bu səbəblə də rəsmi Vaşinqtonun İrəvana təzyiqi başadüşüləndir. Digər tərəfdən, Amerika Ermənistana təzyiq göstərməklə, onları Rusiyanın caynağından qoparmaq istəyir. Həmçinin ABŞ başa düşür ki, Kremlin başı Ukraynadakı savaşa qarışıqdır və getdikcə zəifləyir. Bu səbəblə də sürətli tərpənib ciddi nəticələrə nail olmaqla regionda Moskvanın təsir gücünün zəifləməsinə və öz təsir gücünün artmasına nail olmağa çalışır".

Analitik qeyd edib ki, ABŞ hazırda çox güclü kombinasiyalar edir:

"Yəni Rusiyanı hərtərəfli sıxışdırır. Bu da Ermənistana olan təzyiqlərlə müşahidə olunur. Mən prosesin belə də davam edəcəyini və getdikcə ABŞ-nin İrəvana təzyiqlərinin artacağını proqnozlaşdırıram. Ümumiyyətlə, artıq Vaşinqton mərkəzli danışıqlar formatı önə keçib və Moskva formatı arxa plandadır. Əlbəttə, Rusiya da bununla barışmayacaq və addımlar atacaq. Amma ABŞ daha öndədir. Düzdür, biz rəsmi Vaşinqtonu "süddən çıxmış ağ qaşıq" rolunda görməli deyilik. Bizə onların Minsk qrupunun həmsədri kimi fəaliyyətsizliyi yaxşı məlumdur. Lakin biz proseslərdən öz xeyrimizə və Rusiyanın neytrallaşdırılması üçün istifadə etməliyik. Eyni zamanda üçüncü qüvvələrin proseslərə təsir imkanını da minimuma endirməliyik. Digər tərəfdən, yaxın zamanda müharibə bitsə və Rusiya qalib gəlsə, ABŞ istədiyi kimi at oynada bilməyəcək. Buna görə də biz öz siyasətimizi diqqətlə aparmalıyıq".

**Nihat Müzəffər**

# Fransada pensiya islahatlarına qarşı mitinqlər keçirilir

## Polis qüvvələri nümayişçilərə qarşı səs qumbaralarından istifadə edir




**Fransada 1 may - əmək günü münasibətilə ölkədəki pensiya islahatlarına qarşı mitinqlər keçirilib.**

APA xəbər verir ki, bu barədə yerli "France24" kanalı bildirib.

Paytaxt Parisdə, Nantda, Tuluza və digər şəhərlərdə polis qüvvələri nümayişçilərə qarşı səs qumbaralarından istifadə edir.

Təhlükəsizlik qüvvələri əməkdaşları aksiya iştirakçılarını su şırnaqları və gözyaşardıcı qazın köməyi ilə dağıtmağa çalışır.

Həmçinin qeyd edək ki, Fransa hökuməti bu gün bütün ölkə üzrə 500-650 min, Parisdə isə 100 minə qədər insanın küçələrə çıxacağını gözləyir.

Xatırladaq ki, Fransada pensiya yaşının artırılmasını və bir sıra xüsusi pensiya imtiyazlarının ləğvini nəzərdə tutan pensiya islahatı layihəsi bu ilin yanvarında təqdim olunub. Bu layihə ölkə ərazisində kütləvi nümayişlərə və tətillərə səbəb olub.

14 apreldə Konstitusiya Şurası pensiya islahatını dəstəkləyib, bir neçə müddəalar çıxarılıb, lakin əsas müddəa - pensiya yaşının 62-dən 64-ə qaldırılması təsdiq edilib və bundan sonra Emmanuel Makron sənədi imzalayıb.

# Ermənistan ABŞ və Qərbin təlimatları ilə hərəkət edir

## Paşinyan hakimiyyəti Rusiyanın onu devirə biləcəyindən qorxur



**ABŞ Dövlət katibi Entoni Blinken Azərbaycan Prezidenti İlham Əliyevlə telefonla əlaqə saxlayıb. Blinken Azərbaycan-Ermənistan sülh müqaviləsi üzrə danışıqların əhəmiyyətini vurğulayıb. Həmçinin Ermənistanla Azərbaycan arasında sülh müqaviləsi üzrə danışıqların əhəmiyyətindən danışıb, bu xüsusda ABŞ-nin dəstəyinin davam edəcəyini bildirib.**

Dövlət katibi sülhün əldə edilməsinin mümkünlüyünə inandığını deyib və Azərbaycan-Ermənistan sərhədində sərhəd-buraxılış məntəqəsinin qurulmasına toxunub. Prezident İlham Əliyev isə vurğulayıb ki, Azərbaycan sülh gündəliyini dəstəkləyir. Ölkə başçısı qeyd edib ki, Ermənistanla sülh müqaviləsi üzrə danışıqlara başlamağın və münasibətlərin normallaşdırılmasının təşəbbüskarı məhz Azərbaycan olub. Dövlət başçısı vurğulayıb ki, bu xüsusda da Azərbaycan tərəfindən beynəlxalq hüququn norma və prinsiplərinə uyğun olaraq 5 prinsip Ermənistana təklif edilib.

Blinkenlə Ermənistanın Baş naziri Nikol Paşinyan arasında da telefon danışığı olub, tərəflər regiondakı vəziyyəti müzakirə ediblər. Ermənistan və Azərbaycan arasında danışıqlar prosesi ilə bağlı fikir mübadiləsi aparılıb. Tərəflər regionda sabitliyin və sülhün təmin olunması istiqamətində ardıcıl iş aparıldığını vurğulayıblar. Ermənistanın keçmiş baş naziri Qrant Baqratyan deyib ki, Nikol Paşinyan Blinkenlə telefon danışığında Qarabağdakı durumdan və Laçın dəhlizindən danışıb, amma "status və öz müqəddəratını təyinetmə hüququ"ndan bir kəlmə də söz açmayıb: "Nə baş verir? Tərəflər müxtəlif problemləri həll edirlər. Müharibədə məğlub olan Ermənistan Qarabağı təhvil verir". Sabiq baş nazir Paşinyanın bununla müharibə təhlükəsini Ermənistandan uzaqlaşdırmağa çalışdığını iddia edib.

**Politoloq Elçin Xalidbəyli "Şərq"ə açıqlamasında bildirib ki, Ermənistan birmənalı şəkildə ABŞ və Qərbin təlimatları ilə hərəkət edir. Analitikin sözlərinə görə, Azərbaycan və Ermənistan xarici işlər nazirlərinin Vaşinqton görüşündən əvvəl daha bir məlumat yayılmışdı:** "Rusiyanın Xarici İşlər Nazirliyinin təmsilçisi Mariya Zaxarova bildirmişdi ki, Azərbaycan və Ermənistan xarici işlər nazirlərinin Moskvada görüşməsi barədə razılıq əldə olunub. Ancaq Ermənistan xarici işlər naziri Ararat Mirzoyan bəyan etdi ki, görüş razılaşdırılıb, yeri və vaxtı məlum deyil. Erməni nazirin bu açıqlamasından qısa müddət sonra isə Azərbaycan və Ermənistan xarici işlər nazirlərinin Vaşinqtonda görüşəcəkləri elan olundu. Bu isə o deməkdir ki, erməni nazir görüşün harada və nə vaxt keçiriləcəyini əvvəlcədən bilirdi. Bundan əvvəl də erməni nazir ötən ilin dekabrında məhz Moskvada keçirilməsi nəzərdə tutulan görüşə qatılmaqdan imtina etmişdi. Bütün bunlar onu göstərir ki, rəsmi İrəvan Kremli pərt vəziyyətə salmaqda davam edir. Rəsmi İrəvan Ağ Evdən aldığı tapşırıqları icra edir. Paşinyan hakimiyyəti Rusiyanın onu devirə biləcəyindən qorxur. Çünki Rusiya erməni generaliteti vasitəsilə Ermənistanda hər an hərbi çevriliş etmək imkanına malikdir. Ona görə də, Paşinyan hakimiyyəti hazırda ABŞ və Qərbə daha çox sığınmağa çalışır".

**Ekspertin fikrincə, ABŞ də mövcud situasiyadan maksimum səviyyədə istifadə etməyə cəhd göstərir:** "Son proseslər onu göstərir ki, hazırda ABŞ Cənubi Qafqazda geopolitik orbitr rolunu Rusiyanın əlindən alıb. İndi Azərbaycan və Ermənistan arasında sülh danışıqları prosesi Rusiyadan daha çox ABŞ-nin vasitəçiliyi ilə davam edir. Ağ Ev Cənubi Qafqazda sülh prosesinin uğur qazanmasında birbaşa maraqlıdır. Çünki bu halda, Rusiya Azərbaycan və Ermənistana qarşı əsas təzyiq mexanizmini itirmiş olacaq. Nəticədə Rusiyanın Cənubi Qafqazdan çıxarılması prosesi də sürətlənə bilər. Ona görə də, böyük ehtimalla Azərbaycan və Ermənistan arasında sülh sazişinin imzalanması üçün ABŞ rəsmi İrəvana daha ciddi təzyiqlər göstərir. Ağ Evdə anlayırlar ki, Cənubi Qafqazda son savaşda məğlub tərəf məhz Ermənistandır. Bu səbəbdən də, rəsmi İrəvan təzyiqlərə qarşı daha davamsızdır. Son məlumatlara görə, ABŞ hətta sülh sazişinin imzalanması məsələsində tələsir. May ayının sonlarına qədər sülh sazişinin ilkin variantda imzalanmasına nail olmağa çalışır. Ağ Ev üçün Ermənistanın və ya erməni separatçıların taleyi qətiyyən önəmli deyil. Əsas hədəf Rusiyanın Cənubi Qafqazdan çıxarılması ilə bağlıdır. Bu baxımdan, hazırda ABŞ-nin Ukraynadan sonra Cənubi Qafqazda Rusiyaya qarşı ikinci cəbhə açdığını da düşünmək olar".

**İsmayıl Qocayev**



# Laçın-Xankəndi yolunda məntəqə quruldu, davamı da olacaq

## Bu həm də Xankəndinin Azərbaycan ərazisi olduğu faktını bir daha təsdiqlədi

**Dövlət Sərhəd Xidmətinin bölmələrinin Laçın-Xankəndi yolunun başlanğıcında qurduğu sərhəd-buraxılış məntəqəsindən tam şəkildə fəaliyyətinin ilk görüntüləri yayılıb.**

Bu barədə Baku TV paylaşıb.

Kadrlardan da göründüyü kimi, vətəndaşların sərhədi keçməsi mütəşəkkil və nizam-intizamla, qarşılıqlı nəzakət mühitində baş verir.

Azərbaycan sərhədçiləri yüksək peşəkarlıq nümayiş etdirirlər.

**Hadisəni "Şərq"ə dəyərləndirən Sosial Tədqiqatlar Mərkəzinin Mətbuat xidmətinin rəhbəri, beynəlxalq məsələlər üzrə ekspert Əziz Əlibəyli bildirib ki, ölkədə tez-tez trendlər dəyişir və ya dəyişdirilir:**

"Azərbaycan cəmiyyəti hər zaman süni şəkildə göstərilən hədəflərə yönləndirilir. Yəni rəmzi olaraq bu gün Şuşa azad edildisə, artıq başqa şeyi tələb edirlər. Mənə elə gəlir ki, bu, psixoloji olaraq maksimalist düşüncədən qaynaqlanır. Ümumiyyətlə, Vətən müharibəsi bizim toplumun gözləntilərini ən maksimum həddə qaldırmasına səbəb oldu. Bu baxımdan da bizim toplum istəyir ki, Azərbaycan bayrağı bu dəqiqə Göyçəyə, Zəngəzura asılsın və Ermənistan xəritədən silinsin. Bu belə olmur. Çünki siyasət səbr işidir və onun qanunauyğunluğu zamanın trayektoriyasına əsasən dəyişməsidir. Laçın-Şuşa yolunda nəzarət-buraxılış məntəqəsinin qurulması da buna bir misaldır".

**Ekspert qeyd edib ki, məntəqə qurulanda bunu humanitar fəlakət adlandıranlar da çox oldu:** "Bilirsiniz, ABŞ-dən zəng edildi, fransalı nazir səfərə gəldi. Yəni bu cür yanaşmalar çox oldu. Lakin heç biri Azərbaycanın qərarlarına mane olmaq baxımından rol oynaya bilməz".

İlk erməni dəstəsinin keçməsinə toxunan ekspert diqqətə çatdırıb ki, Azərbaycanın ərazi bütövlüyü və suverenliyinin təmin olunduğu bölgədən keçən hər bir şəxs, öz kimliyi barəsində hesabat verməlidir:

"Bu həm də Xankəndinin Azərbaycan ərazisi olduğu faktını bir daha təsdiqlədi. Həmçinin bu özündə iki prosesi ehtiva edir. Birincisi, Azərbaycanın ərazi bütövlüyünün tam təmin olunmasıdır. İkincisi isə antiterror əməliyyatlarına yol açdı".

**Nihat Müzəffər**

# Bakının hər yerini elektro-skuterlər bürüdü

## Lakin onların idarə olunmasında nə yollar var, nə də qanun



***Alternativ nəqliyyat vasitələri ölkəyə gətirilirsə, onların hərəkəti üçün imkanlar da olmalıdır***

**Skuterlər də həyatımıza daxil oldu. Elektrik malları mağazalarında, ticarət mərkəzlərində elektro-skuterlər vitrinləri bəzəyir. Parklarda, küçə və səkilərdə skuterlə hərəkət edənlərin, əsasən yeniyetmə və gənclərin sayı da artıb. Amma onlara daha çox səkilərdə rast gəlinir. Bəzən hətta piyadaların "üzərinə" də sürürlər. Səhvən. Yanlışlıqla.**

Bu da təbii ki, idarəetmədə naşı olduqlarından irəli gəlir. Sürət, kreativlik gəncləri cəlb edir. Anlaşılandır. Anlaşılmayan, yalnız skuterlə törədilmiş qəzalara görə, lap elə bir piyadanın ayağının zədələnməsinə görə hansı formada cavabdehlik daşınacağıdır. Xatırladaq ki, bir müddət əvvəl bu məsələ Milli Məclisdə də müzakirəyə çıxarılmışdı. Millət vəkili Tahir Kərimli "Yol hərəkəti haqqında" qanunun köhnəldiyini, yenilənməsinə ehtiyac olduğunu bildirmişdi. Deputat qeyd etmişdi ki, şəhərdə skuterlər artıq var, bir azdan pilotsuz avtomobillər də olacaq, amma onlar barədə qanunda heç nə yoxdur. "Yol hərəkətinin təşkili" ilə bağlı vahid hüquqi akt mövcud deyil.

Qeyd edək ki, qardaş Türkiyədə elektrik skuterlərə tələbat hər keçən gün artdığından hökumət avtomobil yolları haqqında qanuna ("Karayolları Trafik Kanunu") dəyişiklik etmək məcburiyyətində qalıb. Skuterlə səkilərdə hərəkət etmək qadağandır və buna görə cərimə tətbiq edilir. Skuterlə səkiyə çıxanlar polis tərəfindən saxlanılır.

Bizdə isə skuterlə avtomobil yollarında hərəkət etmək üçün sürücülük vəsiqəsi tələb edilib-edilməyəcəyi məsələsi, həmçinin skuterlə törədilən qəzanın yol-nəqliyyat qəzası kateqoriyasına aid olub-olmayacağı, qəzalara görə hansı növ cəzaların tətbiq ediləcəyi də açıq qalır. Skuterlərin sayı hər keçən gün artır, qanundakı boşluqlarsa dolmur.

**İqtisadçı Natiq Cəfərli "Şərq"ə açıqlamasında ictimai skuter təcrübəsinin bir çox Avropa ölkələrində, o cümlədən qardaş Türkiyədə, qonşu Gürcüstanda artıq çoxdan tətbiq edildiyini bildirdi:**

- Hər bir ölkə təkcə tıxac problemini deyil, vətəndaşların mümkün qədər rahat hərəkətini təmin etmək üçün müxtəlif vasitələri tətbiq edir. Skuter də bunlardan biridir. Bir çox ölkələrdə bu məsələyə bələdiyyələr nəzarət edir. İctimai skuterlərin nəqliyyatın bir növü kimi tətbiq edildiyi ölkələrdə bununa bağlı qanunvericiliyə müvafiq düzəlişlər də edilir. Skuter nəqliyyat vasitəsi hesab olunursa, törədilən qəza, piyadanın vurulması, xəsarət alması ilə nəticələnəcək hallar da yol-nəqliyyat hadisəsi hesab edilir və buna görə sürücü qanunvericilik qarşısında eyni məsuliyyət daşıyır. Bizdə də ictimai skuter xidməti tətbiq olunursa, qanunvericiliyə mütləq dəyişiklik edilməlidir. Başqa məsələ sığortadır. Sığorta mexanizmi yaradılmalı və ziyan çəkən avtomobillərin sığortalanması təmin edilməlidir. Bunun üçün də qanunvericiliyə dəyişiklik edilməlidir. Həmçinin insanlara dəyəcək fiziki xəsarətə görə də. İstifadə qiymətinə gəlincə, qiymətlər ərazidən, məsafədən asılı olaraq dəyişməlidir. Bakının relyefi enişli-yoxuşludur. Yoxuşlarda əlbəttə ki, daha artıq enerji sərf olunur. Bunu necə hesablayırlar? Fərqli ödəniş haqları tətbiq edilməlidir. Hər hansı yenilik təbiq edilməzdən öncə onun hansı effekti verəcəyi, eləcə də bütün detallar yüz ölçülüb-bir biçilməlidir. Paytaxtda nəinki skuter, velosipedlər üçün də xüsusi zolaqlar çox azdır. Dənizkənarı Milli Parkda xüsusi zolaqlar var, bəzi küçələrdə də. Amma biz görürük ki, velosipedlər, skuterlər çox vaxt yolun avtomobillər üçün nəzərdə tutulmuş hissəsində hərəkət edir. Bu da qəza ehtimalını artırır. Skuterlər ekoloji baxımdan faydalıdır. Tıxacların həlli üçünsə effektsizdir. Skuterlə qısa məsafələrə hərəkət etmək olar. Uzun məsafələr üçün paytaxtın bütün ərazilərini əhatə edəcək işlər görülməlidir. Dayanacaqlar, enerji təminatı nöqtələri, xüsusi zolaqlar Bu vasitə, daha çox əyləncə, ekstrim xarakteri daşıyır.

**Nəqliyyat məsələləri üzrə ekspert İlqar Hüseynli isə "Şərq"ə açıqlamasında qeyd etdi ki, nəqliyyat vasitələrinin idarə edilməsi üzrə vahid qanunlar toplusu mövcuddur, lakin qanunvericiliyin təkmilləşməsinə ehtiyac var:**

- Nəqliyyat vasitələrinin növləri artırsa, onların hərəkətinin tənzimlənməsi üzrə qanunvericilik də təkmilləşməlidir. Qanunvericilikdə yenilənmə aparılmalı, yeni qanunvericilik aktları hazırlanmalıdır. Amma məsələ bununla bitmir. Yeni nəqliyyat vasitələrinin idarə edilməsiylə bağlı qanunvericiliyi təkmilləşdiririksə, onların hərəkətini tənzimləyəcək yol infrastrukturunun qurulması da qanunvericilikdə əksini tapmalıdır. Moped sürücüsünə və ya skuter istifadəçisinə "sən bu yolla hərəkət edə bilməzsən", deyiləcəksə, ona alternativ yol, hərəkət zolağı verilməlidir. Qanunla müəyyənləşməlidir ki, moped və ya velosiped hansı halda deyək ki, avtobus zolağıyla hərəkət edə bilər və ümumiyyətlə, bu nəqliyyat vasitələri avtobus zolağına daxil ola bilərmi? Paytaxda bəzi küçələrdə velosiped zolaqları çəkilib, indi xüsusi avtobus zolaqlarının çəkilməsinə başlanılıb, bir sıra yollarda xüsusi zolaqlar ayrılır. Lakin bunlar hələ ki, yetərli deyil. Alternativ nəqliyyat vasitələri ölkəyə gətirilirsə, onların hərəkəti üçün imkanlar da olmalıdır. Bu imkanlar yoxdursa, yaradılmayıbsa, qəzalar qaçılmazdır.

**Məlahət Rzayeva**

# Rza Pəhləvi fars millətçilərinin təmsilçisidir

## Onun israilli deputatların müraciətinə qarşı çıxması səbəbsiz deyil



**Güneydəki soydaşlarımızın milli azadlıq uğrunda mübarizəsi tədricən beynəlxalq dəstək qazanmaqdadır. Bir neçə gün öncə İsrail parlamentinin - Knessetin 32 üzvü Güney Azərbaycanın müstəqilliyi uğrunda hərəkata beynəlxalq dəstək verilməsi xahişi ilə XİN-ə müraciət göndərib. Müraciətdə İran müxalifətinə və Tehranın Güney azərbaycanlılara qarşı repressiv addımlarının güclənməsinə diqqət yetirilməsi xahiş olunub:** "Bu, İranda sayı 20 milyondan çox olan ən böyük millətdir. Rejim mədəni soyqırım siyasəti yürüdür, azərbaycanlıların təhsil almaq və irsini ötürmək, Azərbaycan dilini öyrətmək və hətta uşaqlarını qeydiyyata almaq hüquqlarını məhdudlaşdırır". Lakin İranın keçmiş şahı Məhəmmədrza Pəhləvinin oğlu Rza Pəhləvi buna qarşı çıxıb və sərt reaksiya verib. O deyib ki, İsrail parlamentinin 32 deputatının Güney Azərbaycanla bağlı ölkənin Xarici İşlər Nazirliyinə müraciəti qəbulolunmaz hərəkətdir. Pəhləvi İsrailin Knesset üzvlərinin bu müraciətini İranın ərazi bütövlüyünə qarşı addım kimi dəyərləndirib: "Belə ağılsız bəyanatlar İsrail liderləri və yüksək rütbəli rəsmilərinin onlarla keçirdiyim görüşlərdəki mövqeləri ilə tamamilə ziddiyyət təşkil edir. Bu gün mən Yerusəlimdəki dostlarımıza özümün və həmvətənlərimin bu məsələ ilə bağlı narahatlığımı bildirdim. Deputatların müraciəti İran hakimiyyətinin maraqlarına xidmət edir". Şahın oğlu İsrail dövlətinin məsələyə aydınlıq gətirməsini, İran-İsrail xalqları arasındakı dostluğa kölgə salan hərəkət barədə açıqlama verməsini xahiş edib.

**Təbriz Araşdırmaları İnstitutunun sədr müavini, dr. Babek Şahed "Şərq"ə açıqlamasında bildirib ki, Rza Pəhləvinin israilli deputatların müraciətinə qarşı çıxması səbəbsiz deyil. Ekspertin sözlərinə görə, Pəhləvi düşüncə və siyasi təfəkkür olaraq özünü fars millətçilərinin təmsilçisi kimi görür:** "Rza Pəhləvi fars millətçilərinin təmsilçisi kimi çıxış etdiyi üçün belə reaksiya verib. Məlumdur ki, fars millətçilərinin əsas ideoloji prinsiplərindən biri türk-ərəb düşmənçiliyidir. Pəhləvi Güney Azərbaycan məsələsinə qarşı çıxmağı özünə ideoloji vəzifə sayır. Əslində bu cür yanaşmanı ilk dəfə sərgiləmir. O, 2006-cı ildə baş vermiş may qiyamı zamanı "İran" qəzetinə belə bir açıqlama vermişdi: "Əgər söhbət Güney Azərbaycanın İrandan ayrılmasından, müstəqil olmasından gedirsə, mən Xamenei ilə birlikdə güneyli pantürkistlərə qarşı mübarizə edəcəyəm". Yəni Rza Pəhləvinin Güney Azərbaycanla bağlı mövqeyi ilə mövcud İran rejimi arasında heç bir fərq yoxdur. Digər önəmli səbəbi isə iki-üç gün öncə verdiyi reportajda özü dilə gətirib. Bildirdi ki, "İranda bir çox adam onun ölkəyə geri dönməsini istəyir. Fəqət pantürkistlər və əhvazlılar ortalığı qarışdırırlar. Pəhləvi "pantürkist" deyərkən Güney azərbaycanlıları nəzərdə tutur. O, güneyli soydaşlarımızı özü üçün siyasi rəqib görür. Ancaq unutmayaq ki, Rza Pəhləviyə İranda dəstək verənlər sadəcə İsfahan, Şiraz, Kirman kimi bölgələrin fars millətçiləridir".

***"Rza Pəhləvinin Güney Azərbaycanla bağlı mövqeyi ilə mövcud İran rejimi arasında heç bir fərq yoxdur"***

**İsmayıl Qocayev**

# Gözlədiyimiz gün gəldi

## Ermənilər Laçın-Xankəndi yolunda Azərbaycan qanunları ilə hərəkət edir

**Azərbaycanın Laçın rayonu ərazisindən Laçın-Xankəndi yolunun başlanğıcında yaradılan nəzarət-buraxılış məntəqəsində avtomobillərin keçidi üçün normal rejim təmin edilib. "Caliber.az" məlumat yayıb ki, vətəndaşların sərhədi keçməsi mütəşəkkil və nizam-intizamla, qarşılıqlı nəzakət şəraitində həyata keçirilməkdədir.**



### "Pasport yoxlanışı postunun quraşdırılması rəsmi Bakının əlini gücləndirəcək"

Azərbaycan sərhədçiləri yüksək peşəkarlıq nümayiş etdirirlər. Bununla bağlı yayılan video-görüntülərdən sərhədçilərimizin qaydalara uyğun olaraq sərhədi keçən ermənilərin pasport yoxlanışını həyata keçirdiyini görmək mümkündür. Eyni zamanda sərhədçilər Ermənistan dövlət nömrə nişanlı avtomobillərin içərisinə və yük yerlərinə də baxış keçirərək onların keçidinə icazə verir. Ötən gün sərhəd-keçid məntəqəsindən 11 nəfərin istifadə etdiyi qeyd olunub. Beləliklə, bir daha məlum olur ki, Ermənistan rəsmilərinin Qarabağ ermənilərinin "etnik təmizləməsi" və Laçın yolunun guya "blokadaya alınması" ilə bağlı yalan açıqlamaları növbəti təbliğat hiyləsindən başqa bir şey deyil. Laçın yolunun girişində nəzarət-buraxılış məntəqəsində təhlükəsizlik və nəzarət tam təmin olunub. Qanun çərçivəsində sərhədi keçməkdə heç bir problem yoxdur. Politoloq Samir Hümbətov deyib ki, Azərbaycan-Ermənistan sərhədindəki nəzarət-buraxılış məntəqəsi həm Ermənistandakı mövcud hökumətə, həm Azərbaycanın Qarabağ bölgəsində yaşayan erməni əsilli vətəndaşlarımıza, həm də regionda marağı olan dövlətlərə açıq mesajdır: "Əlbəttə, indi seçim Ermənistanındır. Ya kənar təxribatlara məruz qalmadan sülh danışıqları masasına oturub Azərbaycan tərəfindən irəli sürülən və beynəlxalq hüquqa uyğun olan şərtləri qəbul edəcək, ya da regionda uzunmüddətli münaqişənin qalıcı olmasına şərait yaradacaq ki, bu da son nəticədə Ermənistana ziyan vuracaq. Ona görə ki, Azərbaycan artıq öz sərhədlərinin mühafizəsini tam şəkildə həyata keçirir. Yəni Azərbaycanın bu məsələdə hər hansı narahatlığı yoxdur. Sərhədlərin delimitasiya və demarkasiyası məsələsində də vəziyyət Azərbaycan Silahlı Qüvvələrinin nəzarətindədir. Hesab edirəm ki, Vaşinqton görüşündə tərəflər, o cümlədən Ermənistan mövcud vəziyyətini bilərək danışıqlar aparacaq. Əks təqdirdə, Azərbaycan Prezidenti cənab İlham Əliyevin qeyd etdiyi kimi, "bizə mənasız danışıqlar lazım deyil".

**Politoloq Turan Rzayev də bildirib ki, Laçında nəzarət-buraxılış məntəqəsinin və pasport yoxlanışı postunun quraşdırılması rəsmi Bakının əlini gücləndirəcək. Analitik qeyd edib ki, hazırda Qarabağda yaşayan ermənilər ya qondarma qurumun, ya da Ermənistan pasportu daşıyır:** "Ermənistan pasportu daşıyan şəxslər digər xarici ölkə vətəndaşları kimi müvafiq prosedur qaydalarından keçsə də, qondarma qurumun pasportunu daşıyan şəxslərdən ölkəyə buraxılmaları üçün mütləq şəkildə Azərbaycan Respublikasının pasportu tələb ediləcək. İkincisi, ermənilər uzun müddətdir iddia edirlər ki, guya, Qarabağda 120 min erməni yaşayır. Erməni pasportu daşıyan şəxslər birmənalı şəkildə Ermənistan vətəndaşlarıdır. Pasport yoxlanışı köşkünün quraşdırılması həm də bu məsələdə dəqiq say əldə etməyimizə səbəb olacaq. Üçüncüsü, Azərbaycan humanitar yüklərin Qarabağa daşınmasına hələlik heç bir maneə yaratmır. Lakin bu proses əbədi belə davam edə bilməz. Ermənistandan gələn yüklərə mütləq rüsum qoyulmalıdır. Dördüncüsü, nəzarət-buraxılış məntəqəsinin və pasport yoxlanışı köşkünün quraşdırılması növbəti mərhələdə Laçın dəhlizinin statusunun ləğv edilməsinə gətirib çıxacaq".

**İsmayıl Qocayev**



**Özbəkistan Prezidenti Şavkat Mirziyoyevin təşəbbüsü ilə ölkə konstitusiyasına əlavə və dəyişikliklərlə bağlı referendum keçirilib. Konstitusiyaya edilən əsas əlavələrdən biri ölkə prezidentinin səlahiyyət müddətinin 5 ildən 7 ilə qədər uzadılmasıdır.**

Bununla da dövlət başçısı Ş.Mirziyoyevin prezidentlik müddəti sıfırlanacaq və o, 2026-cı ildə üçüncü dəfə namizədliyini irəli sürə biləcək. Bundan əlavə, dəyişikliklərə əsasən, Özbəkistan sosial dövlət elan edilir. Qeyd edək ki, seçicilərin 90,21 faizi

# Özbəkistanın uzunmüddətli sabitliyə ehiyacı var

## Məhz referendumla edilən dəyişikliklər ona hesablanıb

Özbəkistanın yeni konstitusiyası haqqında qanun layihəsini dəstəkləyib. Səsvermədə seçicilərin 84,54 faizi iştirak edib.

**Referendumla bağlı "Şərq"ə danışan siyasi şərhçi Azər Həsrət deyib ki, Özbəkistan, ümumiyyətlə, coğrafi olaraq çox təhlükəli bölgədə yerləşir.** Analitikə görə, bu ölkənin ən yaxınında Əfqanıstanın olması, üstəlik, orada özbəklərin yaşaması və əfqan-özbək xalqları arasında tarixi bağların mövcudluğu rəsmi Daşkənd üçün əlavə problemlər deməkdir: "Əfqanıstan "Taliban"ın nəzarəti altındadır. "Taliban" nəinki heç bir qanunu saya salmır, dünyada qəbul edilən heç bir norma ilə hesablaşmır. Qonşuluqda belə bir rejimin mövcudluğu təhlükəlidir. O baxımdan Özbəkistanın müddətli sabitlik strategiyasına ehiyac var. Məhz referendumla edilən dəyişikliklər ona hesablanıb. Özbəkistanda hakimiyyətin tez-tez dəyişməsi arzuolunan deyil, çünki hazırda sabitlik zolağındadırlar və dövlət idarəetməsində ənənə formalaşıb. Bu ənənələr də yerli və milli xüsusiyyətlər nəzərə alınmaqla formalaşıb. Onların zədə görməsi növbəti mərhələdə dövlətin sabitliyinin pozulmasına gətirib çıxara bilər. Digər yandan "sosial dövlət" konsepsiyasının irəli sürülməsi Özbəkistanın indiki səviyyədən daha irəliyə getməsi, vətəndaşların rifah halının yüksəldilməsi məqsədlərinə xidmət edir. Özbəkistanda insanların bir nömrəli məsələsi sosial problemdir. Həmin problemin həlli də Özbəkistanın sabitliyinin qalıcı olmasına əlavə töhfə verə bilər. Prezidentin vəzifəsinin sıfırlanması, növbəti mərhələdə birinci və ikinci dəfə ard-arda seçilə bilməsi üçün yolların açılması məhz buna xidmət edir".

**A.Həsrət vurğulayıb ki, indiki məqamda Özbəkistanın özünü qoruması çox vacibdir:** "Əfqanıstanla yanaşı, təhlükə kimi digər qonşuları - İranı və Tacikistanı da qeyd etmək lazımdır. İran Orta Asiya bölgəsinə bu və ya digər şəkildə ciddi nüfuz etməyə çalışır. Bu nüfuzetməni də əsasən din-məzhəb üzərindən reallaşdırmaq istəyir. Özbəkistan uzun illərdir bu tipli təhlükələrin qarşısını almaqda ustalaşıb. Bundan sonra eynilə davam etmək üçün sabit xəttin qorunmasına ehtiyac var. Tacikistan da ciddi təhlükələrdən hesab olunur. Bu dövlət özünün qeyri-sabit siyasəti ilə təkcə Özbəkistan üçün deyil, qonşu Qırğızıstan üçün də təhlükə sayılır. Ona görə də düşünürəm ki, Özbəkistan sözügedən dəyişiklikləri etməkdə haqlıdır. Düzgün addımdır və ona görə də xalq bunu dəstəklədi".

**İsmayıl Qocayev**



# Uşaqlar dərsdən çıxanda çox vaxt çətinlik çəkir

## Təhsil ocaqlarının yerləşdiyi ərazilərdə yol infrastrukturunun düzgün qurulmasına ciddi yanaşılmalıdır

**Bakıda 7 yaşlı uşağı orta məktəbin qarşısında maşın vurub. Hadisə Xəzər rayonu, Binə qəsəbəsində baş verib. 1981-ci il təvəllüdlü Elsevər Gülməli oğlu Dədəcanov özünə məxsus "Volksvagen" markalı avtomobillə Binə qəsəbəsində yerləşən 334 saylı məktəbin yaxınlığında hərəkətdə olarkən yolu sağdan sola doğru keçmək istəyən piyada - 2016-cı il təvəllüdlü İbrahim Orxan oğlu Məmmədovu vurub. Azyaşlı Sabunçu Tibb Mərkəzinə yerləşdirilib, zəruri tibbi müdaxilə göstərilsə də, orada ölüb. Faktla bağlı Xəzər RPİ-nin İstintaq şöbəsində Azərbaycan Respublikası CM-in 263.2-ci maddəsi ilə cinayət işi başlanaraq istintaq aparılır.**

Bu hadisə məktəblərin yerləşdiyi ərazilərdə avtomobillərin hərəkətinin məhdudlaşdırılması məsələsini aktual edir. Paytaxtda elə məktəblər var, qarşısında nə piyada keçidi var, nə piyada zolağı çəkilib, nə də xəbərdarlıq nişanları qoyulub. Nümunəvi məktəblər var, əlbəttə. Məsələn, Xocasən qəsəbəsində 217 saylı məktəbin qarşısında "Məktəb. Yavaş!" xəbərdarlığı birbaşa yolun hərəkət hissəsinə həkk edilib. Bu xəbərdarlıq avtomobillərin sürətinin tənzimlənməsi məqsədi daşıyır.

Şagirdlərin Allah ümidinə qalaraq evdən məktəbə, məktəbdən evə təhlükəli yollarla gedib gəldiyi ərazilərsə çoxdur. Ekspertlərin də qəti fikri budur ki, məktəb binalarının yerləşdiyi ərazilərdə işıqforların, yerüstü, yeraltı keçidlərin olması mütləqdir.

**"Digesta" Hüquq firmasının direktoru, nəqliyyat məsələləri üzrə ekspert Ərşad Hüseynov "Şərq"ə açıqlamasında təkcə orta məktəblərin deyil, bütün təhsil müəssisələrinin önündə yeraltı, yerüstü keçidlərin, piyada zolaqlarının olmasının vacibliyini vurğuladı:**

- Xüsusilə də məktəblər, uşaq bağçaları, həmçinin təhsil ocaqlarının yerləşdiyi ərazilərdə yol infrastrukturunun düzgün qurulmasına ciddi yanaşılmalıdır. Məktəblilər dərsdən çıxanda avtomobil yolunu keçməkdə çox vaxt çətinlik çəkir. Bütün uşaqları valideynləri məktəbə aparıb-gətirmir. Çox zaman valideynlər arxayınlıq üçün uşaqlarını evin yaxınlığındakı məktəbə qoyur ki, uşaq avtomobil yolunu keçməli olmasın. Valideynlər avtomobil yolundan ehtiyat edirlər. Amma görürsünüz, yollarda ağır faciələr yaşanır. Bunun da səbəbi bəzi məktəblərin qarşısında keçidlərin olmaması, piyadaların rahat və təhlükəsiz hərəkəti üçün zəruri yol nişanlarının quraşdırılmamasıdır.

**Ə.Hüseynov bildirdi ki, işıqlandırma və digər yol infrastrukturunun təşkili Dövlət Yol Polisinin öhdəsində deyil, lakin buna baxmayaraq, DYP də öz növbəsində cavabdeh qurumlara müraciət etməlidir:**

- DYP-nin də marağında olmalıdır ki, piyadaların vurulması ilə nəticələnən qəzaların sayı azalsın. Burada da ən vacib məsələ yol infrastrukturunun düzgün qurulmasıdır. Baxırsan ki, yol uzanıb gedir, amma nə bir dənə işıqfor var, nə də bir keçid. Özlərinə zəhmət verib təhlil aparmaq istəmirlər. Nəqliyyat Nazirliyi, yerli icra hakimiyyətləri də mütəxəssisləri bu işə cəlb etməli, hansı ərazilərdə yol nişanlarına, piyada keçidlərinə, avtobus dayanacaqlarına ehtiyac olduğunu müəyyənləşdirməlidirlər. Xüsusən hərəkətin sıx olduğu küçələrə, yollara diqqət artırılmalıdır. Sıx gediş-gəliş olan yollarda piyadaların da, avtomobil sürücülərinin də təhlükəsizliyi təmin edilməlidir. Orta məktəblər, uşaq bağçaları, təhsil müəssisələrinin yerləşdiyi ərazilərdə yol infrastrukturunun düzgün qurulması ən vacib şərtdir. Məktəblərə yaxın məsafələrdə "Diqqət, uşaqlar", "Diqqət, məktəb", nişanları qoyulur. Amma elə yerlər var, bir dənə də xəbərdarlıq nişanı yoxdur. Nişanlarla yanaşı, məktəblərin qarşısından keçən yollarda sürət həddinin azaldılması tələbi qoyulmalıdır.

Ə.Hüseynov qeyd etdi ki, həmçinin uşaqlara bağçada, məktəbdə yol hərəkəti qaydaları öyrədilməli, xüsusi dərslər keçilməlidir.

**Məlahət Rzayeva**

# Ukrayna əks-hücum əməliyyatına başlayıb

## Əməliyyatın əsas planı Rusiyanı tamamilə Ukrayna torpaqlarından çıxartmaq, Krımı geri almaqdır

**Ukrayna Silahlı Qüvvələri Baxmutda əks-hücuma keçib. Rusiya hərbçiləri bəzi mövqeləri tərk ediblər. Bunu Ukrayna Silahlı Qüvvələrinin quru qoşunlarının komandanı general Aleksandr Sırski bildirib.**

**O deyib ki, Rusiya tərəfi "Vaqner" və digər özəl hərbi qruplaşmaların yeni döyüşçülərini, desantçıları döyüşlərə cəlb edib:**

"Vəziyyət mürəkkəbdir. Lakin Rusiya qüvvələri şəhəri tuta bilmir".



Ukrayna ordusunun Şərq qruplaşmasının sözçüsü Sergey Çerevatı Baxmutda Ukraynaya qarşı 26 min rus döyüşdüyünü deyib. Onun sözlərinə görə, Ukrayna qüvvələrinə qarşı döyüşlərə onlarla 65 tank və 450 zirehli texnika, 56 reaktiv yaylım atəşi sistemi cəlb edilib: "Bu, Çexiya və ya Macarıstan ordusundakından çoxdur". Bu arada bəzi KİV-lər yazıb ki, ruslar mayın 9-dan əvvəl Baxmutu ələ keçirmək istəyir. Qeyd olunur ki, Putin mayın 9-da müharibənin bitdiyini və "Xüsusi Döyüş Əməliyyatı"nın bütün məqsədlərinə nail olunduğunu" bəyan edəcək.

Ukrayna Prezidenti Volodimir Zelenski isə böyük döyüşə hazırlıq getdiyini açıqlayıb. Prezidentin sözlərinə görə, tezliklə torpaqlarını və xalqı rus əsarətindən azad edəcəklər. Roma Papası Fransisk Ukrayna və Rusiyanı hücumdan əl çəkməyə çağırıb və danışıqların təşkili üçün öz nümayəndələrini Moskva və Kiyevə göndərməyə hazır olduğunu bildirib. Papa vurğulayıb ki, danışıqlar hər iki tərəf üçün irəliləyişə səbəb olacaq: "Əgər müharibə tərəfləri istəsə, danışıqlar prosesinin başlanmasına kömək edə bilərik. Danışıq aparanları istənilən vaxt Kiyev və Moskvaya göndərməyə hazırıq". Ekspertlər bildiriblər ki, qış fəslində Rusiya və Ukrayna öz mövqelərini qorumağa, itirdikləri gücləri yenidən bərpa etməyə, genişmiqyaslı hücuma hazırlaşmağa hazırlıq görüblər. Rusiya Dnepr çayının şərqinə və cənubuna çəkilib, Ukrayna isə Qərbdən silah tədarükünü artırıb. Qarşıda isə şiddətli bahar döyüşləri gözlənilir. Ona görə də Rusiya üçün ən önəmli məsələ Krımı saxlamaqdır. Çünki Krım itirilsə, bu, müharibənin və Rusiyanın taleyini həll edəcək.

**Tərəflərin genişmiqyaslı müharibəyə başlayacağı anonsu ilə bağlı "Şərq"ə danışan politoloq Məhəmməd Əsədullazadə deyib ki, belə gedişatla Rusiya-Ukrayna arasında müharibənin səngiyəcəyi və sülh danışıqlarının başlayacağı mümkün görünmür. Analitik qeyd edib ki, tərəflər genişmiqyaslı müharibəyə hazırlıq görürlər:** "Ukrayna əks-hücum əməliyatına başlayıb. Əməliyyatın əsas planı Rusiyanı tamamilə Ukrayna torpaqlarından çıxartmaq, Krımı geri almaqdır. Bu kontekstdə yay aylarında müharibənin daha da şiddətlənəcəyi gözlənilir. NATO və ABŞ bu istiqamətdə Kiyevə güclü dəstək verir və Ukrayna davamlı silahlandırılır. Ukraynanın növbəti əks-hücum əməliyyatı da Qərbin Rusiyaya qarşı planının tərkib hissəsidir. Ona görə də hansısa danışıqdan, müzakirələrdən söhbət gedə bilməz. Nə Rusiya, nə də Ukrayna bu danışıqlara hazırdır. Moskva indiki status-kvonu saxlamaqla danışıqlar masasına əyləşməyə razılıq verir. Bunu isə nə Kiyev, nə də Qərb qəbul edir. Döyüş əməliyyatlarının yeni mərhələsi başlayacaq. Bu da "olum və ya ölüm" savaşı olacaq. Qarşıdakı proseslərə müharibə ilə aydınlıq gələcək. Rusiya Baxmut döyüşlərində ciddi itkilər verir. Artıq ruslar tərəfindən Ukraynanın əks-hücumla bir çox ərazini geri ala biləcəyinin mesajları verilir".

**Məsələyə münasibət bildirən siyasi şərhçi Elçin Xalidbəyli "Şərq"ə söyləyib ki, rusların döyüş bölgəsində vəziyyəti yaxşı deyil:**

"Baxmutun böyük bir hissəsinin Rusiyanın nəzarəti altında olması ilə bağlı məlumatlar yayılıb. Lakin bu, həqiqəti əks etdirmir. Çünki əsl reallığı Priqojin açıqlayıb. O bildirib ki, "Vaqner" tezliklə Baxmutdan geri çəkilmək məcburiyyətində qalacaq. Çünki müqavimət göstərmək üçün silah-sursat və texnika yoxdur. Bu isə Rusiyanın cəbhədə Ukrayna silahlı qüvvələri ilə vuruşmaq üçün imkanının zəif olduğunu göstərir".

Ekspert əlavə edib ki, Ukrayna ordusuna NATO-nun yetərincə silah verməsi və 9-12 briqadanın əks-hücuma hazırlaşması fonunda, rəsmi Kiyevin müharibənin taleyini həll etmək imkanı yüksəkdir:

"Putinin 9 mayda qələbə paradı keçirmə istəyi isə keçən il də olmuşdu. Ancaq proseslər onu deməyə əsas verir ki, onun arzusu ürəyində qalacaq və qələbə paradını uzun müddət gözləmək məcburiyyətində olacaq".

**İsmayıl Qocayev, Nihat Müzəffər**

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

**Müzəffər Ali Baş Komandanın rəhbərliyi ilə 44 günlük Vətən müharibəsində qazanılmış tarixi qələbə, Ermənistan tərəfindən törədilmiş sülh və insanlıq əleyhinə cinayətlər, habelə müharibə cinayətləri ilə bağlı həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması**



# Daha bir tarixi qələbə

## Laçın-Xankəndi yolunda keçirilən dinc aksiya hədəfinə çatıb

**Ötən il dekabrın 12-dən azərbaycanlı ekofəalların Laçın-Xankəndi yolunda keçirdikləri dinc aksiya başa çatıb. Aksiya iştirakçılarının bu addımına səbəb isə aprelin 23-də Dövlət Sərhəd Xidmətinin bölmələri tərəfindən Azərbaycanın suveren ərazisində, Ermənistan ilə sərhəddə, Laçın-Xankəndi yolunun başlanğıcında nəzarət-buraxılış məntəqəsinin qurulması ilə əlaqədar yeni vəziyyətin yaranması olub.**

Ermənistan ilə sərhəddə, Laçın-Xankəndi yolunun başlanğıcında sərhəd-buraxılış məntəqəsinin qurulması 44 günlük Vətən müharibəsində qazanılmış tarixi qələbənin məntiqi nəticəsi idi. Sözsüz ki, Azərbaycan dövlətinin öz ərazilərini qanunsuz müdaxilələrdən qoruması və sərhəd-keçid məntəqələrində nəzarəti təmin etməsi onun suveren və ayrılmaz hüququdur. Beynəlxalq ictimaiyyət bu hüququn ifadəsinə hörmətlə yanaşır. 2020-ci ilin sentyabrından başlayaraq Azərbaycan qarşıya qoyulan hədəflərə doğru addım-addım irəliləyir. Ermənistan ötən 3 il müddət ərzində öz məkrli əməllərindən əl çəkmədi, dəfələrlə edilən xəbərdarlıqlara məhəl qoymadı və nəticədə dövlətimiz Sərhəd Xidmətimiz (DSX) Laçın-Xankəndi yolunu nəzarətə götürdü. Əlbəttə ki, bu, Azərbaycanın 44 günlük müharibədən sonra əldə etdiyi növbəti tarixi nailiyyətdir.

Ekspertlərin fikrincə, Laçın-Xankəndi yolunda sərhəd-keçid məntəqəsinin yaradılması suveren hüquqlarımızın qorunması, təhlükəsizliyimizin təmini istiqamətində atılan mühüm, tarixi addımlardan biridir. Bununla yanaşı, Cənubi Qafqazda sülhün, sabitliyin, rifahın və əmin-amanlığın təməlinin qoyulması istiqamətində mühüm addımdır. Bu addım dövlətimizin təhlükəsizlik məsələsində kimsəyə güzəştə getmədiyini, öz suveren hüquqlarının tam şəkildə bərpası üçün sona qədər iradə sərgiləməyə qadir olduğunu göstərdi. Başlıcası, rəsmi Bakı Laçın-Xankəndi yolunda sərhəd-keçid məntəqəsi yaratmaqla sübut etdi ki, Azərbaycan sadəcə öz təhlükəsizliyini deyil, həm də regional təhlükəsizliyi təkbaşına təmin etməyə qadirdir və bunun üçün kifayət qədər gücü var.

Xatırlatmaq yerinə düşər ki, 44 günlük müharibənin yekununda - 2020-ci il 10 noyabr üçtərəfli bəyanatın imzalanması ərəfəsində Azərbaycan, Rusiya və Ermənistan arasında aparılan danışıqlar zamanı Ermənistan başqa iddialarla çıxış edirdi. İrəvan Laçın dəhlizinin 20 km enində və Ermənistanın nəzarətində olmasını təkidlə istəyirdi. Lakin Ermənistanın bu yersiz tələbi Azərbaycan Prezidenti İlham Əliyev tərəfindən qətiyyətlə rədd edildi. Dövlət başçısı sərt və barışmaz mövqe ortaya qoyaraq, Laçın dəhlizinin 5 km müəyyən edilməsi, 3 il müddətində yeni yolun istifadəyə verilməsi və Laçın rayon mərkəzinin Azərbaycana qaytarılması ilə bağlı prinsipial müddəaların üçtərəfli bəyanatda əksini tapmasına nail oldu.

Millət vəkili Vüqar Bayramovun fikrincə, Dövlət Sərhəd Xidmətinin Laçın yolunda nəzarət-keçid məntəqəsi qurması Azərbaycan tarixinin ən vacib hadisələrindəndir. Bu, regionda dayanıqlı sülhün əldə edilməsi üçün vacib şərtlərdən idi. Onun sözlərinə görə, nəzarət məntəqəsinin yaradılması sülh danışıqlarında əsas istiqamət olan ölkələrin ərazi bütövlüyü və suverenliyi prinsipinə də uyğundur: "Qarabağ Azərbaycanın ayrılmaz hissəsi və iqtisadi rayonlarından biridir. Bu baxımdan, Azərbaycanın istənilən ərazisi ilə digər ölkələr arasındakı əlaqələr suverenlik prinsiplərinə uyğun olaraq əmtəə və insanların hərəkətinin nəzarət-buraxılış məntəqələrində qeydiyyatı ilə reallaşması vacib idi. Laçın rayonunda nəzarət-keçid məntəqəsinin yaradılması yalnız siyasi deyil, eyni zamanda iqtisadi əhəmiyyətə malikdir. Qeyd etmək lazımdır ki, Ermənistan Azərbaycanın gömrük rüsumundan yayınaraq 30 illik işğal dövründə qanunsuz yükdaşımalara milyardlarla dollar həcmində Azərbaycan iqtisadiyyatına ziyan vurub. Nəzarət-keçid məntəqəsi həmçinin Azərbaycan sərvətlərinin qeyri-leqal daşınmasının qarşısını alacaq və Qarabağ iqtisadi rayonunda təbii ehtiyatların talanmasına son qoyacaq.

Azərbaycan yeni mərhələyə qədəm qoyur. Bu həmçinin iqtisadi bütövləşmə mərhələsidir".

**Sosial Tədqiqatlar Mərkəzinin (STM) sektor müdiri, politoloq İlyas Hüseynov isə "Şərq"ə açıqlamasında deyib ki, Azərbaycanın Ermənistan ilə sərhəddə, Laçın-Xankəndi yolunun başlanğıcında sərhəd-buraxılış məntəqəsi qurması tarixi və strateji əhəmiyyət kəsb edir. Çünki Azərbaycan ərazi bütövlüyü, suverenliyi və sərhədlərinin toxunulmazlığı kontekstində bütün hüquqları öz əlində saxlayır, beynəlxalq hüquqdan irəli gələn vəzifələrini və öhdəliklərini yerinə yetirməkdə müstəqildir:** "Azərbaycanın Laçın-Xankəndi yolu üzərində post qoyması həm də ölkəmizin və regionun təhlükəsizliyinin möhkəmləndirilməsi baxımından xüsusi əhəmiyyət kəsb edir. Çünki bu yoldan sərvətlərimizin talanıb daşınması, əraziyə silah-sursatın, minaların, canlı qüvvənin gətirilməsi üçün istifadə edilirdi. Azərbaycanın uğurlu addımları sayəsində artıq bu cür hərəkətlər müşahidə olunmayacaq. Əgər Ermənistan tərəfindən yenidən qanunsuz davranışlara cəhd edilərsə, preventiv tədbirlərlə qarşısı alınacaq. Ölkəmizin bu addımı həm də böyük bir coğrafiyanın təhlükəsizliyi baxımından önəmlidir. Bundan əlavə, Ermənistan mina terrorunu, diversantları bölgəyə gətirməsini, eləcə də təminat yollarının minalanmasını davam etdirirdi. Bütün bu addımlar qəbuledilməz idi. Azərbaycanın gördüyü adekvat tədbirlərlə Laçın yolundan sui-istifadənin qarşısı alınacaq. Bu addım, həmçinin Vətən müharibəsindən sonra Azərbaycanın hərbi-diplomatik sahədə qazandığı ən böyük nailiyyət kimi dəyərləndirilir".

***"Azərbaycanın Laçın-Xankəndi yolu üzərində post qoyması həm də ölkəmizin və regionun təhlükəsizliyinin möhkəmləndirilməsi baxımından xüsusi əhəmiyyət kəsb edir"***

Millət vəkili Azər Badamov isə hesab edir ki, Laçın-Xankəndi yolunun Ermənistana birləşən yerində yaradılması Azərbaycanın suveren hüququdur: "Bu həm də beynəlxalq normaların tələbidir. Həm də yolun başlanğıcında "Siz Azərbaycanın ərazisinə daxil olursunuz. Ölkənin qanunlarına riayət etməyiniz xahiş olunur!" yazısı da qoyulmalıdır. Laçın-Xankəndi yoluna daxil olan hər kəs Azərbaycanın suveren ərazisinə daxil olduğunu hiss etməlidir. Belə olmasa, ermənilərin özbaşınalıqları davam edəcək".

**Deputatın sözlərinə görə, Laçın - Xankəndi yolunda aksiyalar başlayana qədər Ermənistan separatçılara minalar, silah-sursat və canlı qüvvə daşıyırdı:** "Bu da 2021-ci ildə buraxılmış minaların yenidən basdırılaraq terror hadisələrinin davam etməsinə, hərbçilər və vətəndaşlarımızın xəsarət almasına yol açırdı. Həm də 10 noyabr Üçtərəfli bəyanata əsasən, Rusiya sülhməramlılarının müvəqqəti yerləşməsi ilə paralel olaraq Ermənistan öz hərbçilərini Azərbaycanın ərazilərindən çıxarmalı olduğu halda, əksinə, kontingentin sayını çoxaldaraq 10 mindən çox nəfərə çatdırdılar. Bu da Azərbaycanın ərazisi daxilində yeni hərbi gücün formalaşmasına şərait yaratmış və hər zaman təhlükə mənbəyinə çevrilmişdi. Həm də yolda nəzarət olmayanda Ermənistan Qarabağdan yeraltı sərvətləri talayıb aparırdı. Bu müddətdə sülhməramlılara, Ermənistana, Birgə Monitorinq Mərkəzinə dəfələrlə xəbərdarlıqlar olunmuşdu. Amma bütün narahatlıqlarımız cavabsız qalırdı. Təbii ki, Ermənistanın bu özbaşınalıqlarına son qoyulmalı idi".

**Şəymən Bayramova**

**Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə çap olunub**

# Bizdən sonra anılacaq şəxsiyyət

## *Üç yaradıcılıq birliyinin fəalı haqqında*



**Yazıçı, jurnalist, fotoqraf, "Humay" mükafatı laureatı, Azərbaycan Yazıçılar, Jurnalistlər və Fotoqraflar Birliklərinin üzvü Şirməmməd Nəzərli.**

**Nurlu üzünün arxasında nurlu bir şəxsiyyətin kamil obrazı durur. Başqa sözlə desək, daxilinin nuru üzünə çilənib. Bu müqəddəs əmanəti qorumaq, onu sabahın pillələrinə aydınlıq olsun deyə səpmək üçün ömrünün 75-ci illəsinin tamamında da gənclik şövqi ilə çalışır. Daha kamil bir mesaj ötürmək üçün...**

O, yazıçı kimi: Roman, hekayə, tərcümə, dram əsərlərindən və bədii film ssenarilərindən ibarət 16 kitab müəllifidir. "Müctəhidin yuxusu" (ADADT), "Yusifin qəmi"(Sumqayıt DDT) pyesləri və həmmüəllif olduğu daha iki səhnə əsəri müxtəlif illərdə tamaşaya qoyulub. Müəllifin "Tac Mahal və ya iki damla göz yaşı" radio tamaşası Azərbaycan radiosunun "Qızıl fondu"nda qorunur. "Mən haqqı sevirəm" mistik televiziya tamaşasının mətni isə Azərbaycan Yazıçılar Birliyinin saytında yerləşdirilib və 16 mindən çox oxucu toplayıb. "Erməni qadının etirafları" adlı tammetrajlı bədii film ssenarisi Qarabağ problemlərinə həsr olunub. "Çəkilməyən film" romanı, "13 hekayə. 13 rasskazov", "Yusifin qəmi. Peçal Yusufa"və digər kitabları ədəbiyyat sferası tərəfindən yüksək qiymətləndirilir. "Luç" Mədəniyyət Xadimləri Assosiasiyasının elan etdiyi "Ən yaxşı hekayə" (rus dilində) beynəlxalq müsabiqəsində 98 əsər sırasında Ş.Nəzərlinin "Atasının oğlu" əsəri ikinci yerə layiq görülüb. "Tac Mahal və ya iki damla göz yaşı" radio tamaşası Azərbaycan radiosunun "Qızıl fondu"nda qorunur. Fərəhli haldır ki, onun hekayələri vaxtaşırı dövrü mətbuatda dərc edilir. Müəllifə xas bədii xüsusiyyətlərdən ən önəmlisi odur ki, o, bütün nəsrini sanki kino kamerası üçün nəzərdə tutaraq yazır və bütün bu əsərlər gözlənilməz sonluqla bitir. Müəllifin "Çəkilməyən film romanı" ibrətamiz hekayətdir, əsərin boyuna sanki serial donu biçilib, həm də ədəbiyyatımızda kino rejissoru haqqında bəlkə də ən irihəcmli nəsr nümunəsidir.

Publisist kimi: Əfqanıstan müharibəsində (1979-1989) həlak olmuş 214 gənc Azərbaycan hərbçisi haqqında 10 il ərzində araşdırma apararaq oçerk və onu müşayiət edən fotoportret hazırlamaqla "Ömrün qönçə çağında" kitabını (2012) ərsəyə gətirib. Dövri mətbuatdaçoxsaylı yazıları ilə yanaşı, elmin populyarlaşdırılması məqsədilə özünün məqalələrinə və alimlərin araşdırmalarına, onların elmi nailiyyətlərinə həsr edilmiş müsahibələrdən ibarət "Elmin cazibəsi" sislsilə kitabların (həlelik 3 kitab nəşr olunub. Layihə rəhbəri akademik Akif Əlizadədir) müəllifidir. Ş.Nəzərli təhsil aldığı BDU-nun 100 illiyi münasibətilə Jurnalistika fakültəsi Elmi şurasının qərarı ilə bu ali məktəbin tələbələri üçün metodik vəsait kimi "Foto və söz " kitabını (2018) hazırlayıb.

Jurnalist kimi: Ş.Nəzərli 1977-ci ildə ADU-nun (indiki BDU) jurnalistika fakültəsini bitirdikdən sonra Bakı Məişət Kondisionerləri zavodunun radio-qəzetində redaktor, Dövlət Teleradio Şirkətində kiçik redaktor, Azərbaycan Jurnalistlər Birliyi (AJB) İdarə Heyətində baş məsləhətçi, Jurnalist Fondunun direktor müavini, "Vışka" qəzetinin Ukrayna üzrə xüsusi müxbiri, "İRS" beynəlxalq jurnalının təsisçisi və baş redaktoru, "Azəri prodakşn"ın baş redaktoru işləyib. Bu illər ərzində onun təşəbbüsü ilə AJB-nin Naxçıvan Muxtar Respublikası bölməsi yaradılıb, Abşeronun Nardaran kəndində Beynəlxalq Jurnalist Evinin tikintisi üçün SSRİ Jurnalistlər İttifaqından maliyyə vəsaiti ayrılmasına nail olub, ADU-nun üstündən yabançı ad M.Ə.Rəsulzadə ismilə əvəzlənib, "Əməkdar jurnalist" fəxri adı bərpa edilib və s. Sumqayıt hadisələrinin əsl səbəbkarları onun jurnalist araşdırmasında öz əksini tapıb və Türkiyə mətbuatında işıqlandırılıb. Baş redaktoru olduğu "İRS" jurnalı üçün hazırladığı aktual materiallara görə "Humay" mükafatın layiq görülüb.

Ş.Nəzərli Qarabağ separatçılarının cürət tapdıqları 1989-cu ildə AJB-nin tapşırığı ilə ölkənin rayon və çoxtirajlı qəzet redaktorlarından ibarət (40 nəfər) heyətə rəhbərlik edərək, SSRİ Jurnalistlər İttifaqının təşkilatçılığı ilə keçirilən seminara qatılır. Bu seminar planına daxil edilmiş tədbirlərdə Moskva tərəfi erməniərəst mövqelərini açıq bürüzə verdikdə Azərbaycan jurnalistləri etirazlarını bildirirlər. Belə görüşlərin birində azərbaycanlı jurnalist, siyasi icmalçı Aleksandr Bovindən Qarabağ probleminə açıq münasibət bildirməsini istədikdə arvadı gənc erməni qızı olan A.Bovin deyir: "Açıq sualınıza açıq cavabım belədir: mən erməniləri dəstəkləyirəm!". Bu cavabdan sonra tədbir iştirakçıları A.Bovinin simasında Moskvanın birtərəfli siyasətinə qarşı etiraz səslərini ucaldırlar. Beləliklə, tədbirdə stress yaşanır, iştirakçılardan olan bir çoxtirajlı qəzet redaktoru ürəyindən yapışır... Tezliklə Bakıya qayıdan jurnalistlər onun ürək tutmasından vəfat etməsi xəbərindən sarsılırlar...

Sadalanan faktlar kamil bir insan obrazının mənzərəsini yaradır. Bu mənzərədə fədakar bir vətəndaş, yazıçı, jurnalist və fotoqrafın yorulmaz əməyinin, tükənməz istedadının şahidi oluruq. Əslində essenin ekzpozisiyasında Şirməmməd Nəzərliyə məxsus bütün mesajları oxuduq. Buna baxmayaraq, bəzi məqamlarına görə pərdə arxasında qalan bir yazıçı, bir dramaturq obrazının da tablosunu çəkmək istərdik. Ona görə də müəllifin müxtəlif ədəbi janrlara da tam fəaliyyəti barədə olmasa da, bir teatr mütəxəssisi kimi Ş.Nəzərlinin bir neçə dramaturgiya nümunəsi haqqında söz deməyi lazım bildim.

Missiya. Bu, ilahi bir qismətdir, Alın yazısıdır, ondan adlamaq olmur. Qələm adamları da seçilmişlərdir, çünki ötürmə missiyaları var. Hər kəs ali təhsilli ola, elm qazana bilər, amma istedad ilahi bir mükafat, məsuliyyət, ömürlük bir ağır yükdür. Onu şərəflə daşımaq hər adama nəsib olmur. Şirməmməd Nəzərli bu ağır yükün altında əzilmədi, onu şərəflə daşıdı, günümüzə çatdırdı, sabaha bir pəncərə açdı missiyası belə müəyyənləşdirildiyi üçün! Ali missiya da bunu tələb edir. Əgər qələmə sarılmısansa, dünənə işıq salmalı, bu günü təsvir etməli, sabaha mesaj ötürməlisən. Ş.Nəzərli bizə nə dedi, ondan sabaha nə əmanət qalır?

Konseptual baxış. Şirməmməd Nəzərli, bir yazıçı kimi, insanlara İNSAN obrazını təqdim edir. Güclü müşahidə qabiliyyəti ciddi seçim hüququ verdiyindən qələmindən süzülən hər bir obraz, xarakter günümüzlə səsləşir, eyni zamanda sekulyarlaşır. Onun yaradıcılığında fərdi problemlər sosial problemlərə çevrilir ki, bu da yaradıcılığının məişətçilikdən, daha doğrusu, yaradıcılığını məişət dramından uzaqlaşdırır.

"Yusifin qəmi" pyesi Moskvada rus və Azərbaycan dillərində çap edilib, Rusiya Dövlət Duması sədrinin keçmiş müavini Vyaçeslav (Əli) Polosin əsərə ön söz yazıb. Ölkəmizdə din tarixi mövzusunda yazılmış dramaturji materiallar arasında ideya və fəlsəfi baxımdan seçilən bir əsərdir. Əsərin əsas mənbəyi tarix və müqəddəs kitabımız "Qurani-Kərim" olduğundan müəllif tarixi faktlara sadiq qalaraq məxəzlərdən istifadə edib. Bu dram əsəri Azərbaycan Mədəniyyət Nazirliyinin elan etdiyi "Ən yaxşı pyes" müsabiqəsində qalib gəlmiş iki səhnə əsərindən biridir. Əsərə Sumqayıt Dövlət Dram Teatrında Əməkdar incəsənət xadimi Bəhram Osmanov uğurla səhnə təcəssümü verib.

"Memarın taleyi" pyesi bəşəriyyətə yol göstərən nurlu şəxsiyyətlərin məhv edilməsinə həsr olunub. Məgər bu gün istedadlar məhv edilmirmi? Bunu bizə kim edir? Elə öz qonşularımız, bizi gözügötürməyənlər, paxıllığı qeyrətinə üstün gələnlər. Məkr və hiylənin insan həyatını necə məhv etdiyini hamımız aydın görürük. Tac-Mahalı tikdirənin də qəlbinin gözləri qapandığından, o türk memarının qollarını kəsdirir ki, ikinci belə bir memarlıq abidəsi tikilməsin. Bu əsərin fabula xəttinin şaxələrində əsas ideyaya xidmət edən bir sıra ciddi məqamlar və hadisələr var: memarın məhəbbəti, Molinadinin sədaqəti. Bütün bunlar ürək titrədən hadisələrdən yoğrulub və müəllif onu janrın xüsusiyyətləri çərçivəsində həll edib.

Hazırda ABŞ-də yaşayan digər bir müstəqil ədəbiyyat araşdırıcısı Ramik Cəfərzadə "Mən haqqı sevirəm" əsərinin incəliklərini təqdir edir, bu cür mövzuya hər qələm sahibinin müraciət etməməsini vurğulayır, eyni zamanda belə bir cəhəti də qeyd etməyi lazım bilir ki, pyesdə M.Füzulinin mənsub olduğu millət barədə dedikləri hazırda azərbaycanlılarımızın düşüncələrilə üst-üstə düşür, lakin yaxşı olardı ki, müəllif bu məziyyəti MİLLƏT yox, ÜMMƏT baxımından təqdim edəydi...

Əsərdə rus yazıçısı L.Tolstoyun çətin axirət imtahanı öncəsi durumuna görə M.Füzulinin onun üçün etdiyi dualar qəlbi titrədir, alicənablıq, insansevərlik dərsliyi kimi yaddaşa hopur.

Müasir Azərbaycan ədəbiyyatında öz yolu və uğurları ilə seçilən Firuz Mustafa dramaturgiyamız barədə hesabat xarakterli araşdırmasında milli-mənəvi dəyərlərə söykənərək qiyməti səhnə əsərləri yaratmaqda seçilən həmkarları sırasında Şirməmməd Nəzərlini də xüsusi qeyd edir. Sadalanan və deyilməyən rəylər bir daha göstərir ki, müəllifin səhnə əsərləri diqqətə layiqdir. Biz isə təəssüf edirik ki, müəllif dərin mətləblərə söykənən bu əsəri yalnız mistik televiziya film-tamaşa formatında təqdim edir, teatr həvəskarlarını sanki feyziyyabdan məhrum qoyur. Deyirəm, bəlkə müəllif hazırda TV-lərdə kifayət qədər vaxt zəbt edən bəzi zəif serialların mövcudluğuna etirazını yeni təklif kimi bu yolla verir?

*Sonda onu da deməliyik ki, Şirməmməd Nəzərlinin çoxşaxəli nəsr yaradıcılığı haqqında geniş tənqidçi sözünə bu gün ehtiyac duyulur.*

**Rafiq Rəhimli,**
**Əməkdar mədəniyyət işçisi,**
**"Qızıl Kitab" mükafatı laureatı**

# Azərbaycanda süni mayalanmaya hələ ki, qadağa yoxdur

## Ola bilsin ki, tv-lərin reklamında şəxsi həyata müdaxilə aşkarlanıb, bu səbəbdən də onlara xəbərdarlıq edilib



**Yerli televiziya kanallarından dördünə xəbərdarlıq edilib. Şuradan verilən xəbərə görə, iclasda "İqtisadiyyat Nazirliyi yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidmətinin və Azərbaycan Respublikası Audiovizual Şurasının birgə fəaliyyətinə dair 2024-cü ilədək Tədbirlər Planı"na uyğun olaraq hər iki orqan tərəfindən reklam yayımları ilə bağlı həyata keçirilən monitorinqlərin nəticələri müzakirə olunub.**

Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidməti tərəfindən Azərbaycan Respublikası Audiovizual Şurasına ünvanlanmış müraciətlərə əsasən həyata keçirilmiş audiovizual proqramlarının monitorinqi nəticəsində bir sıra televiziya redaksiyalarının efirində "Reklam haqqında" Azərbaycan Respublikasının Qanununun 29.5-ci maddəsinin tələbinin (hamiləliyin süni yolla pozulması və süni mayalanma üzrə tibbi xidmətin reklamı qadağandır) pozulması faktı qeydə alınıb. Belə ki, 25 aprel, 26 aprel və 27 aprel 2023-cü il tarixlərində "Xəzər TV", 28 mart, 04 aprel və 26 aprel 2023-cü il tarixlərində "ATV", 28 mart 2023-cü il tarixində "ARB", 10 mart 2023-cü il tarixində "Dünya TV" televiziya redaksiyalarının efirində süni mayalanma üzrə tibbi xidmətin reklamına yol verilməsi halları aşkarlanıb. Aparılan müzakirələrdən sonra Azərbaycan Respublikası Audiovizual Şurası "Xəzər TV" MMC-yə, "Azad Azərbaycan" Müstəqil Teleradio Kompaniyasına, "ARB 24" MMC-yə, "Dünya" Müstəqil Televiziya və Radio Şirkəti Redaksiyasına bir daha belə halın təkrarlanacağı təqdirdə ciddi inzibati sanksiya tətbiq ediləcəyi ilə bağlı xəbərdarlıq edib.

Məsələ ilə bağlı "Şərq"ə danışan həkim-ginekoloq Fəxranə Hüseynzadə qeyd etdi ki, ölkədə süni mayalanma qadağan deyil. Hamiləliyin süni yolla pozulması isə bəzi ölkələrdə rəsmi şəkildə qadağan edilsə də, bizdə hələ ki, belə bir qadağa yoxdur:

- Sadəcə, burada məsələ təbliğat və əkstəbliğatdır. Hamiləliyin süni yolla pozulması, əlbəttə, mənfi haldır, tibbi nöqteyi-nəzərdən də sağlamlığa ziyanlı və həyat üçün təhlükəlidir. Uzun müddətdir Milli Məclis "Reproduktiv sağlamlıq haqqında" qanun üzərində işləyir. Məqsəd qadın sağlamlığı, hamiləlik, hamiləliyin süni yolla pozulması kimi qadın sağlamlığına, genefonda zərər vuracaq halların qarşısının alınması, təbii nəsil artımına, təbii doğuşlara üstünlük verilməsi üçün qadın sağlamlığının gücləndirilməsi istiqamətində əməli tədbirlərin icrasını təşviq etməkdir. Belə vəziyyətdə əgər hansısa telekanal hamiləliyin süni yolla pozulmasını reklam edirsə, təbii ki, bu, əks-təbliğat vasitəsi hesab olunur və yolverilməzdir. Lakin süni mayalanma yoluyla hamiləlik uzun illər övlad həsrətində olan ailələrə ümid işığıdır. Evlilik müəyyən müddət davam edir və təbii hamiləlik mümkün olmursa, tibbi göstərişlərə uyğun olaraq süni mayalanmadan istifadə edilə bilir. Bunu həkim müəyyən etməlidir. Bu, ciddi və çox məsuliyyətli bir əməliyyat olduğundan hər klinikaya da bu əməliyyatı icra etmək icazəsi verilmir. Hər klinika süni mayalanma əməliyyatı təklif edə bilməz. Bunun üçün xüsusi razılıq - lisenziyaya sahib olmalıdırlar. Hesab edirəm ki, dörd telekanala bu məsələdə reklam qanunu pozduqlarına görə xəbərdarlıq edilməsi, ya xüsusi icazəsi olmayan tibb müəssisəsinin reklamı ilə bağlıdır, ya da birbaşa insan hüquqlarının pozulmasıyla bağlı. Çünki bəzən televiziyalarda süni mayalanma ilə övlad sahibi olanlar reklam çarxına cəlb edilir. Bilmək olmur, onlar həqiqətən süni mayalanma ilə övlad sahibi olanlardır, yaxud sadəcə reklam çarxına çəkiliblər. Pasiyentin konfedensial hüquqları var. Pasiyent özü haqqında məlumatların kiməsə verilməsini, paylaşılmasını istəmirsə, kimsə o məlumatları paylaşa, yayımlaya bilməz. Bu, qanunla qadağandır. Süni mayalanma haqqında bilgilər də pasiyentlərin müstəsna hüququdur. Ola bilsin ki, tv-lərin reklamında şəxsi həyata müdaxilə aşkarlanıb, bu səbəbdən də onlara xəbərdarlıq edilib. Belədirsə, düzgün qərardır. İnsanları efirə çıxarıb, süni mayalanmayla övladlarının dünyaya gəldiyini elan etmək nə hüquqi, nə də etik baxımdan doğrudur. Bizim əxlaqımız, adət-ənənəmiz də bunu qəbul etmir.

**Məlahət Rzayeva**

# Düzgün idman növü seçilməyəndə faciə ilə nəticələnir

## "Uşaq peşəkar idmançı olmayacaqsa, olmaq istəməyəcəksə, onu idman zallarına göndərməyin"

**Sumqayıtda azyaşlı oğlan idman məktəbində aldığı xəsarət səbəbindən vəfat edib.**

2016-cı il təvəllüdlü Fərid Bakarov Avropa oyunlarının bürünc mükafatçısı, tanınmış idmançı Mehman Xəlilovun keçirdiyi sambo məşqləri zamanı ağır xəsarət alıb. M.Xəlilov azyaşlıya qarşı təhlükəli fənd işlədib və 7 yaşlı Fəridin başı bədəninin altında qalması səbəbindən boynu qırılıb. Azyaşlı dərhal Sumqayıt Şəhər Uşaq Xəstəxanasına çatdırılsa da, orada vəfat edib.

Sumqayıt şəhər prokurorluğundan bildirilib ki, hadisəni törədən 1994-cü il təvəllüdlü Mehman Xəlilov iş üzrə şübhəli şəxs qismində tutulub.

Faktla bağlı Sumqayıt şəhər prokurorluğunda Cinayət Məcəlləsinin 126.3-cü (qəsdən sağlamlığa ağır zərər vurma ehtiyatsızlıqdan zərərçəkmiş şəxsin ölümünə səbəb olduqda) maddəsi ilə cinayət işi başlanıb.

Mehman Xəlilov 2019-cu ildə Minskdə keçirilən İkinci Avropa Oyunlarında sambo idman növü üzrə bürünc medal qazanıb. O, həmçinin digər yerli və beynəlxalq yarışlarda da yüksək nəticələr göstərib.

Ölən azyaşlının babası Ələsgər Məlikov "Baku TV"-yə açıqlamasında deyib ki, Fərid Bakarov Mehman Xəlilovun sevimli tələbəsi olub. Həm azyaşlının, həm də məşqçinin yaxınları hələ də hadisənin şokunu yaşayırlar. Onlar həm də qohum imiş. Saxlanılan məşqçinin əmisi Əfqan Xəlilovun sözlərinə görə, Fərid Bakarovun ailəsi ilə yaxın qohumdurlar.



Mütəxəssislərin fikrincə, məşqçilər azyaşlı ilə işləyəndə çox diqqətli və ehtiyatlı olmalıdır. Yəni azyaşlının ölümünə görə məsuliyyətin tam olaraq məşqçinin üzərində olduğu qeyd edilir.

Qeyd edək ki, 7 yaşlı uşağın məşq zamanı boynunun qırılaraq ölməsi sosial şəbəkələrdə müzakirələrə səbəb olub. Faciə həmçinin uşaqların kiçik yaşlarda ağır idman növlərinə qoyulması problemini də aktuallaşdırıb. Məşqçilər qeyd edir ki, azyaşlılar ağır idman növlərinə yazılmazdan əvvəl onların bədəni yoxlanılmalı, bədən elastikliyi, sümük kövrəkliyi öyrənilməlidir. Əks halda, uşağın cəlb edildiyi və ya özünün seçdiyi idman onun ən yaxşı halda zədə almasına, pis halda isə ölümünə səbəb ola bilər.

**Pediatr Vaqif Qarayev isə "Şərq"ə açıqlamasında bildirib ki, azyaşlılar üçün belə idman növləri təhlükəlidir. Həkim qeyd edib ki, idman uşaqlar üçün sağlamlıq olsa da, düzgün idman növü seçilməyəndə, bu, faciə ilə nəticələnir:** "Uşaq peşəkar idmançı olmayacaqsa, olmaq istəməyəcəksə, onu idman zallarına göndərməyin. Sağlamlıq üçün üzgüçülük və gimnastika kifayətdir. İstər oğlanlarda, istərsə də qızlarda əzələ kütləsinin inkişafında, bədənin formalaşmasında, xüsusən də qamətin düzgün olmasında həm gimnastikanın, həm də üzgüçülüyün rolu müqayisə olunmazdır. Mən həkim olaraq bu iki idman növünü məsləhət görərdim".

**Şəymən**

# Məhkəmələrdə ən çox işlər alimentlərlə bağlıdır

## Müraciət edən qadınların əksəriyyəti uşağa verilən pulun azlığından şikayət edirlər

**Məhkəmələrə gedən ən çox işlərdən biri alimentlə bağlı iddialardır. Xüsusən də də alimentin artırılması ilə bağlı iddialar son zamanlar artıb. Hüquqşünas, mediator Fərhad Mehdiyev "Şərq"ə açıqlamasında daha çox Ailə Məcəlləsinin 78-ci maddəsi ilə təyin olunan alimentin (sabit məbləğdə ödənilməsi) ödənməsində problem yaşandığını deyir.**

Bizə müraciət edən qadınlar uşağa pulun çatmadığından şikayət edir, kişilər isə işsizlikdən. Alimentin artırılması üçün müraciət edən qadınlarla söhbət zamanı məlum olur ki, qarşı tərəf heç əvvəlki məbləği də ödəyə bilmir. Müraciətin səbəbini soruşanda isə "ödəməsə də, qoy, borcu yığılsın" deyə cavab verirlər. Sonda isə alimentdən yayınan ata inzibati həbs olunur və nəticədə hər iki tərəf itirir.

Vəkilin sözlərinə görə, alimentdən yayınmaq istəyən atalar 220 manat əvəzinə 100-120 manat verməklə məhkəmənin qərarını icra etmiş olur: "Qarşı tərəf şikayət edəndə isə qazancının bu qədərinə imkan verdiyini iddia edərək məsuliyyətdən boyun qaçırır. Əslində burada kişiləri də qınamaq olmur. Bəzən 600 manat maaş alan şəxsə qarşı iddia qaldırırlar ki, 3 uşağa görə 220 manat ödəsin. Halbuki qanunvericiliyin tələbinə görə, 220 manat hər iki valideyn tərəfindən qarşılanmalı olan bir məbləğdir. Aliment qadına xidmət haqqı deyil ki!?

Aliment, uşağın saxlanılması üçün ödənilən puldur. Bura uşağın zəruri xərcləri - yaşayış minimumu xərcləri daxildir. Bura qədər bu hissə mübahisə olunmur. Aliment uşağa baxmağın pulu deyil, o ayrıdır, uşaq 3 yaşını doldurana qədər anaya ödənilən puldur. Uşaq 3 yaşını doldurduqdan sonra həmin pul kəsilir, düşünülür ki, uşağı pulsuz (!) dövlət bağçasına gedə bilər, ana da işləyər.

Bu səbəblə, uşağın saxlanılması üçün ödənilən aliment, pul qazanan valideyndən alınmalıdır, valideynin hər ikisi işlədikdə, hər ikisindən alınmalıdır. Başqa bir sözlə bugünkü 220 manat aliment (maaş aşağı olduqda bu yola gedilir) hər iki valideyn işlədiyi halda hər iki tərəfdən bərabər həcmdə kəsilməlidir.

Ailə Məcəlləsinin 76-cı maddəsində bunla bağlı problem yoxdur, orda "valideynlərindən" sözündən istifadə olunub. AM-nin 78-ci maddəsi sabit məbləğdə ödənişi bir valideynin üstünə qoysa da, AM-nin 75-ci maddəsinə görə, hər iki valideyn uşağın saxlanılması öhdəliyini daşıyır. Odur ki Məcəlləni dəyişməyə belə ehtiyac yoxdur, məhkəmə praktikası bu şəkildə dəyişdirilməlidir.

Təbii ki, ölkə şərtlərində dolanmq çətindir, 220 manat belə bir uşağın xərclərinə kifayət etmir. Amma bütün bunlar o demək deyil ki, 600 manat alan ata 3 uşağa görə 660 manat ödəməlidir. Axı bu adam özü də yaşamalıdır! Belə hallarda mütləq şəkildə həmin məbləğ hər iki valideyn arasında bölünməlidir. 600 manat gəliri olan adam dərisini soyub 660 manat çıxardası deyil ki. Avropada ata alimenti ödəyə bilmirsə, dövlət həmin ailələrə maddi yardım edir. Amma bizdə bu təcrübənin tətbiqi real deyil. Əgər hökumət



belə bir qərar versə, rəsmi iş yeri olmayan əksər şəxslər də süni şəkildə boşanacaq ki, uşağa görə aliment ala bilsinlər. Məncə, bu da xoşagələn hal deyil və alimentin pis ödənilməsindən daha zərərli nəticələri olar".

**F.Mehdiyev deyib ki, əgər aliment hər iki valideyn arasında bərabər bölüşdürülsə, boşanma sayı azalacaq:** "Bu gün üçün boşanmaqla bağlı iddiaları qaldıranlar əksər hallarda qadınlardır. Bu hal onların həm boşanmaya getmədə motivlərini, həm də uşaqların hamısının öz yanında saxlamasının motivini azaldacaq. Dargəlirli, işləməyən boşanmış ataların yükü zəifləyəcək. Hazırda inzibati həbs yatanların ciddi hissəsi aliment borcu olanlardır. Düşünmürəm ki, kimsə onların həbsdə qalmasından xüsusi zövq alır. Bununla belə kəskin qiymət artımı fonunda, yanında uşağı olan və alimenti ala bilməyən boşanmış valideynə, dövlətin əlavə yardımları necə təqdim ediləcəyi müzakirə olunmalıdır".

**Şəymən**




# "Nar" gənclər üçün yeni iş imkanları yaratmağa davam edir

**"Nar" ADA Universitetində təşkil olunan 11-ci karyera sərgisində iştirak edib.**

Artıq ənənə halını almış sərginin əsas məqsədi tələbə və məzunları bir araya toplayaraq onların işəgötürənlərlə peşəkar əlaqələr qurmasına dəstək olmaq, eləcə də işəgötürənlərin bacarıqlı kadr axtarışlarını asanlaşdırmaqdır.

Karyera sərgisi zamanı ADA-nın 1500-ə yaxın tələbə və məzunu şirkət və qurumların təqdim etdiyi müxtəlif karyera fürsətləri barədə ətraflı məlumat əldə ediblər."Nar"ın İnsan resursları komandası da öz növbəsində gələcəyin mütəxəssislərinə peşələrinin iş mühitindəki real tələbləri barədə məlumat verib. Həmçinin şirkətin əməkdaşları gələcəkdə karyerasını telekommunikasiya sahəsində davam etdirmək istəyən gənclərə cari vakansiyalar barədə məlumat verərək dəstək olublar. Eyni zamanda mobil operatorun təcrübə və təqaüd proqramından yararlanmaq istəyən tələbələrin sualları cavablandırılıb.

Qeyd edək ki, təhsilin inkişafına dəstək "Nar" sosial fəaliyyətinin əsas istiqamətlərindəndir. Mobil operatorun bu sahədə gördüyü genişmiqyaslı layihələri ilə buradan tanış ola bilərsiniz.

*"Nar" hal-hazırda 2,2 milyon abunəçiyə yüksək keyfiyyətli rabitə xidmətləri göstərməkdədir. "Nar" son 4 ildə Müştəri Loyallığı İndeksinə görə ölkədə lider mobil operatordur. Mobil operator müştəriyönümlülük strategiyasına sadiq qalaraq sərfəli qiymət qarşılığında üstün xidmət təqdim edir.*

# Xalq artistinin qızı kanalda aparıcılıq edəcək



**Xalq artisti Rafiq Hüseynovun qızı Leyli Hüseynli bundan sonra CBC TV-də çalışacaq.**

Bu barədə Leyli şəxsi instaqram hesabında bildirib.

O, TV-də çəkilən görüntülərini paylaşıb.

Məlumat üçün bildirək ki, mərhum diktor Rafiq Hüseynovun qızı Leyli daha əvvəl AzTV-də işləyib.

**Elan**

Əliyev Əsəd Zərqəm oğluna məxsus şəxsiyyət vəsiqəsi, diplom və hərbi bilet itdiyi üçün etibarsız sayılır.

Təsisçi və baş redaktor: Akif Aşırlı
Baş redaktorun ı müavini: Yusif Nəzərli
Redaktor: Ayyət Əhməd

Reportyorlar qrupu:
Məlahət Rzayeva, Şəymən Bayramova, İsmayıl Qocayev, Aygün Tahir, Nihat Müzəffər, Sücayət Mehti

Texniki heyət:
Rüfət Dadaşov, İmamcan Əliyev, İlahə İbrahimova, Nailə Cabbarlı, Fazilə Məmmədova

Qəzet "Şərq"in kompyuter mərkəzində yığılır, səhifələnir və "Azərbaycan Nəşriyyatı" MMC-nin mətbəəsində çap olunur

Qəzet Mətbuat və İnformasiya Nazirliyində qeydə alınıb.
Lisenziya: 535
www.sherg.az
e-mail: sherq-1996@mail.ru

Ünvan: Mətbuat prospekti, "Azərbaycan" nəşriyyatı.
Telefon: 447-32-41
538-44-50, internet 538-44-15,
İndeks: AZ1073

Hesab nömrəsi:
"Muğanbank" ASC baş ofis
Kod: 506162
VÖEN: 1400122681
M/H: AZ41NABZ01350100000000018944
S.W.İ.F.T.: MUGAAZ22
AZM hesab nömrəsi: AZ76MUGA400603803000225AZM00
VÖEN 1300414651 İndeks: 0330

Tirajı: 1550 Sifariş: 1105



## Qanun hazırlanıb

13 yaşdan kiçik uşaqlara sosial media qadağan olunacaq

**ABŞ-də 13 yaşından kiçik uşaqlar üçün sosial medianı qadağan edən qanun layihəsi hazırlanıb.**

"Şərq" xarici mediaya istinadən xəbər verir ki, Senatda 13 yaşından kiçiklər üçün sosial media qadağası ilə bağlı kompromis əldə edilib. 13-17 yaş arası uşaqlar da sosial mediadan istifadə etmək üçün valideyn razılığına ehtiyac duyacaqlar. Qanun layihəsi təsdiqlənməsi üçün əvvəlcə Senatda, sonra isə Nümayəndələr Palatasında qəbul edilməlidir. Bundan sonra prezident Bayden də təsdiq etməlidir.

Turan

## 13 yaşlı uşaq 66 nəfəri xilas etdi

Sürücünün sükan arxasında qəflətən halı pisləşib



**ABŞ-nin Miçiqan ştatında məktəblilərə xidmət edən avtobusun sürücüsünün sükan arxasında qəflətən halı pisləşib və bayılıb.**

Sürücünün idarəetməni itirdiyini görən 13 yaşlı şagird Dillon Reeves sürücüyə yaxınlaşaraq avtobusu idarə etməyə başlayıb. "Şərq" "NTV.com.tr"yə istinadən xəbər verir ki, 13 yaşlı şagird sükanı əlinə alaraq avtobusu kənara çəkərək saxlayıb. Avtobusun salonunda 66 şagird olub. D.Reevesin ayıqlığı və avtomobil idarəetmə bacarığı 66 nəfərin həyatını xilas edib. Bu əməlinə görə Dillon "Amerika qəhrəmanı" elan edilib. Yerli polis hadisəni araşdırmaq üçün videomüşahidə kameralarını incələyib. Dillonun təhsil aldığı məktəbə polis tərəfindən belə bir məzmunda məktub göndərilib: "Sürətli düşünən 7-ci sinif şagirdi, sürücünün ağır vəziyyətdə olduğunu görüncə, avtobusun ön hissəsinə keçib və avtobusun rahat bir şəkildə durdurulmasına yardım edib. 13 yaşlı uşağın bu davranışından böyük qürur duyuruq". Polis geniş bir tədbir keçirərək Dillon və ailəsinə təşəkkür edib.

Məlahət

## Fillər yük maşınlarının qarşısını kəsib "haqq alır"



**Kambocada ölkə əhəmiyyətli magistrallardan birində fillər bir növ yolkəsənlik edir. Lakin bu canlıların minik avtomobilləri ilə işi yoxdur.**

Lent.az bildirir ki, fillər yalnız şəkər qamışı adşıyan yük maşınlarının qarşısını kəsir. Açıq daşınan yüksək "haqqını alan" fil avtomobili buraxır. Artıq sürücülər də buna öyrəşib. Fillər şəkər qamışını çox sevir.

## "Səni bütün qəlbimlə sevirəm"

Məsut Özil Amine Gülşeyi ad günü münasibəti ilə təbrik edib





**Məsut Özil iki övladı ilə birlikdə həyat yoldaşı Amine Gülşenin yeni yaşını sosial şəbəkədəki paylaşımı ilə qeyd edib.**

**"Şərq" xəbər verir ki, Mesut Özil və Amine Gülşe 2019-cu ildə ailə qurub, bu evlilikdən qızları Eda və Ela dünyaya gəlib. Xoşbəxt ailə quran cütlükdən sosial şəbəkədə yeni paylaşım gəlib. Özil Gülşənin 30 yaşını aprelin 30-da instaqram səhifəsində qeyd edib.**

**Özil həyat yoldaşı ilə çəkdirdiyi fotoları sosial media hesabında paylaşaraq, "Hər şeyim, ad günün mübarək. Allah ürəyinə görə hər şeyi nəsib etsin. Sağlamlıq və əmin-amanlıq hər şeydən önəmlidir... Çox sevindim. Buradayam, səni bütün qəlbimlə sevirəm" sözlərini yazıb.**

**Amine Gülşe instaqram hesabında ürək emojisi ilə birlikdə "Ad günümü təbrik edən hər kəsə çox sağol" mesajını da paylaşıb.**

**Bundan əlavə, Gülşə "Evlilik çox müqəddəs bir şeydir" ifadələrini işlətərək, "Mən Məsutu çox sevirəm. Qısqanmıram, ona çox güvənirəm. O məni heç vaxt aldatmaz" ifadələrinə də yer verib.**

Turan



# Ağstafadan Bakıya yürüşə çıxdı

## Ağa Əliyev rekorda imza atmaq istəyir

**Ağstafanın Səməd Vurğun qəsəbəsinin sakini, 34 yaşlı atlet Ağa Qəzənfər oğlu Əliyev rayondan Bakı şəhərinə qədər 466 kilometr məsafəni qət etməklə rekorda imza atmağı düşünür. O, bu yürüşünü Ümummilli Liderin anadan olmasının 100 illiyinə həsr edib.**

Azərtac xəbər verir ki, Ağa Əliyev bu məsafəni 5 günə qət etməyi qarşıya məqsəd qoyub. Əgər bu reallaşarsa, Azərbaycanda ilk olacaq. İndiyədək ölkəmizdə hər hansı atlet 5 gün ərzində 466 kilometr məsafəni qət etməyib.

Atlet deyir ki, bu idman növü ilə 20 ildir məşğul olur. Azərbaycan və Türkiyədə keçirilən marafonlarda iştirak edib. "Ağstafa, eləcə də ölkə gənclərinə göstərməyə çalışıram ki, hər kəs öz bacarığını nümayiş etdirsin, tarixə düşməyə cəhd etsin. Bunu etsələr arzularına da çatacaqlar", - deyə A.Əliyev bildirib.

Qət ediləcək məsafənin uzunluğundan qorxmadığını söyləyən Ağa Əliyev adını Azərbaycanın idman tarixinə yazdıra biləcəyinə ümid edir.

Bu gün səhər saatlarından Ağstafa şəhərindən, Heydər Əliyev Mərkəzinin qarşısından yola çıxan Ağa Əliyev Bakı şəhərinə qədər yürüş edəcək.

Qeyd edək ki, yürüş Gənclər və İdman Nazirliyi və Azərbaycan Atletika Federasiyası tərəfindən təşkil olunub. Atlet ümumilikdə dayanacaq olaraq, 5 nöqtədə fasilə edəcək. Yürüş Bakı şəhərində Fəxri xiyabanda başa çatacaq.







# İflic ata ölüm yatağında qızına yalvarır

## Harri və Meqan Markl yeni qalmaqalla gündəmə gəlib



**Böyük Britaniya kral ailəsinin "arzuolunmaz şəxsləri" halına gələn şahzadə Harri və həyat yoldaşı şahzadə Meqan Markl yeni qalmaqalla gündəmə gəlib. Buna səbəbsə Meqan Marklın atası Tomas Markldır. Şahzadənin atası bu günlərdə bir televiziya kanalına qonaq olub və açıqlama verərək hələ də küsülü qaldıqları qızı Meqanla barışmaq istədiyini deyib.**

"Şərq" "NTV.com.tr"yə istinadən bildirir ki, digər övladlarıyla birlikdə "7NEWS Spotlight" adlı tv-kanalı tərəfindən sənədli filmə çəkilən ata Markl iflic keçirdiyini və ölüm döşəyində qızına yalvardığını deyib: "Bu da onu hərəkətə gətirməyəcəksə, başqa nə edə bilərəm?" söyləyən ata, şahzadə qızının indiyədək yayımlanmamış görüntülərini də efirə verib. Sənədli filmə çəkilənlər Meqan Marklın ögey bacıqardaşlarıdır. Ata Tomas Markl qızıyla arasında yaşanmış küsülülükdən danışıb və hər cür ünsiyyətə hazır olduğunu, qızının onunla sanki atası həyatda deyilmiş kimi davranmasından üzgün olduğunu deyib. Sənədli filmdə Tomas Markl qızıyla yenidən bir araya gəlmək, nəvələriylə əlaqə yaratmaq, ünsiyyət saxlamaq istədiyini də bildirib. "Bu, böyük bir xəyal qırıqlığıdır və hər gün məni üzür. Nəvələrimi görmək, onlarla görüşmək, söhbət etmək istəyirəm. Başqa bir arzum yoxdur" söyləyən ata, "qızınız burada olsaydı, ona nə söyləyərdiniz?" sualına "gəl, bir yerə gedək, söhbət edək. Problem nədədi? Bunu necə düzəldə bilərəm?" cavabını verib. Atası deyib ki, qızı uşaq ikən çox yaxın olublar. Bir yerdə gəzintiyə çıxıb, vaxtlarını birgə keçiriblər. Kaş ki aralarındakı ziddiyyəti çözə bilsəydilər. "Meqan məni çox istəyirdi. Mən onun qəhrəmanıydım. Və birdən, qəfil, səbəbini anlamadan məni ürəyindən çıxardı, qovdu", deyən ata qəmgin halda "həyatımın son illərində məni tərk etməyə dəyərmi? Atasından xilas olmağa dəyərmi?, söyləyib.

Məlahət

## Süni zəka uşaqlara oxumaq-yazmaq öyrədəcək

Bill Geyts layihəyə 10 milyon dollarlıq investisiya qoyub





**"Microsoft"un qurucusu Bill Geyts 10 milyon dollarlıq investisiya qoyuluşu sayəsində ərsəyə gəlmiş süni zəka robotu "ChatGPT"in yaxın zamanda uşaqlara dərs verə biləcəyini açıqlayıb.**

"NTV.com.tr" xəbər verir ki, Bil Geyts süni zəka robotunun hazırda təlim-tədrislə məşğul olan müəllimlərlə eyni səviyyədə çalışacağını və 18 ay içərisində uşaqlara oxumaq-yazmaq öyrədəcəyini deyib. 67 yaşlı milyonçu bu robotları "söhbət robotları" adlandırıb və deyib ki, onlar xüsusilə kasıb ölkələrdə uşaqların təhsil almasına yardım edəcəklər. ABŞ-nin San-Diyeqo əyalətində keçirilən ASU+GSV Zirvə görüşünə qatılan B.Geyts süni zəkalı "söhbət robotları"nın hər hansı bir insanın bacardığı qədər çox yaxşı müəllim olmaq bacarığına malikdirlər. Qeyd edək ki, "Microsoft"un ChatGPT və Google birgə ərsəyə gətirdiyi "Bard" süni zəkalı "söhbət robotları" son aylarda daha da təkmilləşdirilib və artıq insan zəkasıyla rəqabət apara bilir. Süni intellekt robotları insanlar kimi müəyyən bir dili tanımaq bacarığına sahibdir. B.Geyts bu robotların şagirdlər üçün motivasiya mənbyi olacağına inanır. B.Geyts hesab edir ki, "söhbət robotları" şagirdlərə özəl dərslər almaq üçün daha faydalı və əlçatan olacaq.

Məlahət

## Yeni dünya müharibəsi...

Dahi riyaziyyatçı vaxtı hesabladı



**Dahi riyaziyyatçı Siddiq Əfqan riyazi hesablamalar apararaq, yeni dünya müharibəsinin başlanacağı ili təyin edib.**

"Medicina" xəbər verir ki, əfqan alim gələcək hadisələri proqnozlaşdıra bildiyi üçün artıq sağlığında "əfsanə" adı qazanıb.

Riyaziyyatçının kəşf etdiyi düsturla, hadisələri başlamazdan xeyli əvvəl hesablamaq mümkündür. Mütəxəssislər ona "XXI əsrin Nostradamusu" titulunu veriblər. Riyaziyyatçını arsenalında artıq bir sıra praqnozlaşdırılmış hadisələr var. Belə ki, 1989 - cu ildə Əfqanlı alim canlı yayım zamanı SSRİ - nin dağılacağını praqnozlaşdırmışdı. Riyaziyyatçının yaratdığı düstur 2058-ci ilə qədər hesablamağa imkan verir. Bununla belə, səhvlər istisna edilmir. Son 1 ildə əfqan alimə tez - tez yeni dünya müharibəsinin başlaması və Ukraynadakı müharibə ilə bağlı suallar verilirdi. S.Əfqan öz düsturuna görə yeni dünya müharibəsinin tarixinin 2055-ci il olacağını təxmin edib. Bununla belə, riyaziyyatçı etiraf edir ki, onun proqnozları yalnız insanlar üçün 100% dəqiqdir, dövlətlər üçün isə 70-80%, dünya üçün isə 50-60% təşkil edir.